16 iyul 2021 №53 (1830)
www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## Azərbaycan və Türkiyə hər zaman bir-birinin yanındadır

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyədə 15 iyul dövlət çevrilişi cəhdinin (2016) beşinci ildönümü ilə bağlı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edib.

Dövlətimizin başçısı, ilk növbədə, həmin günlərdə həlak olan şəhidlərin xatirəsini dərin ehtiramla yad edib. Prezident İlham Əliyev bildirib ki, Türkiyə dövlətçiliyinə və xalqına qarşı yönəlmiş həmin xəyanətkar dövlət çevrilişi cəhdinin qarşısının alınmasında şəxsən Rəcəb Tayyib Ərdoğanın göstərdiyi qətiyyət və böyük liderlik müstəsna rol oynayıb.

Dövlətimizin başçısı qeyd edib ki, həmin tarixi sınaq günlərində xalqın Rəcəb Tayyib Ərdoğanın ətrafında sıx birləşməsi Türkiyə xalqının dövlətçilik yolunda göstərdiyi fədakarlığının bariz nümunəsi olub.

Prezident İlham Əliyev Türkiyədə, 15 iyul dövlət çevrilişi cəhdi günlərində olduğu kimi, bu gün də Azərbaycanın dost və qardaş Türkiyənin yanında olduğunu xüsusi vurğulayıb, ölkələrimiz və xalqlarımız arasında sıx birliyin bundan sonra da möhkəmlənəcəyinə əminliyini ifadə edib.

Rəcəb Tayyib Ərdoğan telefon zənginə və göstərilən diqqətə görə Azərbaycan Prezidentinə minnətdarlıq edib və öz növbəsində Türkiyə-Azərbaycan birliyi və qardaşlığının hər zaman möhkəmlənəcəyinə əmin olduğunu bildirib.

## "Salam, Azərbaycan!" deyib "Şəki – gözəlliyin sehri"nə çıxaq

### "İRS" silsiləsindən yeni nəşrlərin təqdimatı keçirildi

Artıq səkkiz ilə yaxındır "İRS" seriyasından nəşr olunan kitablar Azərbaycanın tarixi-mədəni zənginliyini müxtəlif dillərdə oxuculara tanıdır, təbliğ edir.

İyulun 14-də "İRS" layihəsi çərçivəsində daha iki nəşrin – "Salam, Azərbaycan!" və "Şəki – gözəlliyin sehri" kitablarının təqdimat mərasimi keçirildi. Yeni nəşrlər Mədəniyyət Nazirliyi, "Azərbaycan Hava Yolları" QSC və "PAŞA Həyat Sığorta" ASC-nin dəstəyi ilə ərsəyə gəlib.

"Baku Marriott Boulevard Hotel"də təşkil olunan tədbiri giriş sözü ilə açan mədəniyyət naziri Anar Kərimov bildirdi ki, kitabın təbliği ilə bağlı tədbirlər xüsusi önəm kəsb edir: "İRS" layihəsi Azərbaycan mədəni mirasının dünyaya tanıdılmasına böyük töhfələr verir. Təqdimatına toplaşdığımız "Salam, Azərbaycan!" kitabı ölkəmiz haqqında özündə o qədər müfəssəl məlumatı ehtiva edir ki, onu Azərbaycanın bələdçi kitabı da adlandırmaq olar. Bu nəşrdə xalqımızın adət-ənənəsi, tarixi abidələri, mədəniyyəti, fauna və florası, mətbəxi və ölkəmizin uğurlu inkişafı öz əksini tapıb. Ümid edirik ki, bu cür layihələrin də təsiri ilə Azərbaycana daha çox turist gələcək".

"Şəki – gözəlliyin sehri" kitabı haqqında söz açan Anar Kərimov dedi ki, nəşr Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən olan Şəki şəhəri barədə dolğun məlumatları özündə əks etdirir.



Mədəni irsimizin bərpasına, mühafizəsinə dövlət səviyyəsində göstərilən diqqəti nəzərə çatdıran nazir bildirdi ki, son illər bu istiqamətdə çoxsaylı layihələr həyata keçirilib. Bu layihələrin böyük bir qismi Prezident İlham Əliyevin qayğısı nəticəsində reallaşdırılıb. Məhz bu qayğının məntiqi davamı olaraq Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü və dəstəyi ilə Azərbaycanın qədim mədəni irs nümunələri UNESCO-nun siyahılarına salınır. Şəki şəhərinin tarixi mərkəzi də Xan sarayı ilə birgə 2019-cu ildə UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilib. Hazırda bu siyahıda Azərbaycanın üç mədəni irs məkanı – İçərişəhər, Qobustan və Şəki yer alıb.

davamı səh. 3-də

## UNESCO siyahılarına salınan irs nümunələri ilə bağlı sertifikatlar təqdim edilib

İyulun 15-də Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov UNESCO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının baş katibi, xüsusi tapşırıqlar üzrə səfir Elnur Sultanovu qəbul edib.



Görüşdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, UNESCO və İCESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın səyləri nəticəsində milli mədəniyyətimizin dünyada getdikcə daha çox tanındığı və UNESCO kimi nüfuzlu təşkilatlarda mövqeyinin güclənməsi qeyd edilib.

UNESCO-nun müvafiq siyahılarına daxil edilən milli mədəni elementlərimizin sayının getdikcə artdığının səvindirici olduğunu vurğulayan Elnur Sultanov son illərdə daxil edilən elementlər üzrə sertifikatların Azərbaycan tərəfinə təqdim olunduğunu bildirib.

Milli Komissiyanın baş katibi "Yallı (Köçəri, Tənzərə): Naxçıvanın ənənəvi qrup rəqsləri", "Dədə Qorqud irsi: Dastan mədəniyyəti, xalq nağılları və musiqisi", "Nar bayramı, ənənəvi nar festivalı və mədəniyyəti" və "Miniatür sənəti" nominasiya fayllarının UNESCO-nun Bəşəriyyətin qeyri-maddi mədəni irsi üzrə Reprezentativ siyahısına daxil olunduğunu təsdiqləyən sertifikatları nazir Anar Kərimova təqdim edib.

Sonra ölkəmizin UNESCO ilə əməkdaşlığı və müxtəlif konvensiyalar çərçivəsində həyata keçirilən fəaliyyətlər ətrafında müzakirələr aparılıb.

Xatırladaq ki, Azərbaycan, Türkiyə və Qazaxıstan tərəfindən birgə təqdim edilən "Dədə Qorqud irsi: Dastan mədəniyyəti, xalq nağılları və musiqisi" çoxmillətli nominasiya faylı və ölkəmizin UNESCO-nun Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısına təqdim etdiyi "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" milli nominasiya faylı 2018-ci ilin 26 noyabr – 1 dekabr tarixlərində Mavriki Respublikasının paytaxtı Port-Luis şəhərində UNESCO Hökumətlərarası Komitəsinin 13-cü sessiyasında qəbul olunub.

"Nar bayramı, ənənəvi nar festivalı və mədəniyyəti" milli nominasiyası və Azərbaycan, Türkiyə, İran və Özbəkistanın birgə təqdim etdiyi "Miniatür sənəti" çoxmillətli nominasiyası üzrə faylların siyahıya salınması barədə qərarlar isə 2020-ci ilin 16 dekabrında UNESCO-nun Hökumətlərarası Komitəsinin Parisdə virtual formatda keçirilən 15-ci sessiyası çərçivəsində qəbul edilib.

Hazırda ölkəmizin 15 qeyri-maddi mədəni irs elementi UNESCO-nun müvafiq siyahılarında yer alır.

## "Nizami Gəncəvi və Yunus Əmrə: ortaq dəyərlərimiz"

İyulun 15-də Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin kitabxana və nəşriyyat işi üzrə məsul şəxsləri və mütəxəssisləri, eləcə də Türkiyə Milli Kitabxanası direktorunun daxil olduğu nümayəndə heyətinin Azərbaycana səfəri başlayıb.

Nümayəndə heyəti rəsmi görüş və tədbirlərdən öncə Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət edib. Sonra Milli Kitabxanaya gələn qonaqlar "Heydər Əliyev guşəsi", "Beynəlxalq əməkdaşlıq zalı", "Nadir kitablar və kitabxana muzeyi", sərgi zalı, kitabxana fondu ilə tanış olublar.

Daha sonra Azərbaycan Mədəniyyət Nazirliyinin, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun və Milli Kitabxananın birgə təşkilatçılığı ilə "Nizami Gəncəvi və Yunus Əmrə: ortaq dəyərlərimiz" mövzusunda dəyirmi masa keçirildi.




Tədbiri Milli Kitabxananın direktoru, professor Kərim Tahirov açaraq diqqətə çatdırdı ki, 2021-ci il Türk dünyasının bir neçə dahi şair və mütəfəkkirlərinin əlamətdar ildönümləri ilə yadda qalacaq. Bu il dünya poeziyasının günəşi hesab edilən Nizami Gəncəvinin anadan olmasının 880 illiyi münasibətilə Prezident İlham Əliyevin sərəncamı ilə ölkəmizdə "Nizami Gəncəvi İli" elan olunub. Eyni zamanda Yunus Əmrənin vəfatının 700 illiyi münasibətilə qardaş Türkiyədə "Bizim Yunus və türkcənin dünya dili kimi təbliğ edilməsi ili" elan edilib. Direktor Yunus Əmrə və Nizami Gəncəvinin yaradıcılıqlarından söz açdı, hər iki dahinin ortaq türk mədəniyyətinə verdiyi töhfələrdən danışdı.

davamı səh. 2-də

## Dünya İrs Komitəsinin 44-cü sessiyası onlayn rejimdə keçiriləcək

İyulun 16-da Çin Xalq Respublikasının Fuçjou (Fuzhou) şəhərində UNESCO-nun Dünya İrs Komitəsinin 44-cü sessiyası işə başlayır. İyulun 31-dək davam edəcək sessiya onlayn rejimdə keçiriləcək.

Xatırladaq ki, Dünya İrs Komitəsinin növbəti (illik) sessiyasına Çinin ev sahibliyi etməsi barədə qərar 2019-cu ildə komitənin Bakıda keçirilən 43-cü sessiyasında qəbul edilmişdi. Lakin 2020-ci ildə pandemiya buna imkan vermədi. Bununla belə, bir il ertələnmədən sonra da sessiya onlayn formatda reallaşacaq.

Sessiyanın gündəliyinə ötən ildən yığılıb qalan məsələlər də daxil edilib. O cümlədən Dünya İrsi Siyahısına 2020 və 2021-ci illər üzrə irəli sürülmüş nominasiyalara birlikdə baxılacaq. Ümumilikdə 42 nominasiya nəzərdən keçiriləcək ki, bunun da 24-ü 2020-ci ildən qalıb. Təqdim olunan nominasiyalardan 35-i mədəniyyət, 6-sı təbiət, 1-i qarışıq (mədəniyyət və təbiət) irs nümunəsidir. Onların arasında Türkiyənin Malatya bölgəsindəki Arslantəpə qədim şəhər yeri, Trans-İran dəmiryolu və Hawraman/Uramanat mədəniyyət landşaftı (hər ikisi İran), Oneqa gölü və Ağ dəniz petroqlifləri (Rusiya), Kolxida tropik meşələri və su-bataqlıq əraziləri (Gürcüstan) kimi nominasiyalar var.

United Nations Educational, Scientific and Cultural Organization
World Heritage Convention

## TÜRKSOY kuboku uğrunda at yarışı



səh. 8

## 30-cu illərin qara yelindən qalanlar

Paytaxtımızda yerləşən və müxtəlif sahələri əhatə edən, sırf mədəniyyət profilli olmasa da, əslində, tarixi-mədəni və elmi irs məkanı sayılan muzeylər haqqında oxuculara məlumat verməyə davam edirik. Bu yazıda Dövlət Sərhəd Xidmətinin (DSX) tabeliyində fəaliyyət göstərən Siyasi Repressiya Qurbanları Muzeyi haqqında söz açacağıq.

Muzeydən reportaj hazırlamaq üçün DSX-nin müvafiq şöbəsi ilə əlaqə saxladıq. İstəyimiz müsbət qarşılandıqdan sonra fotoqrafımızla birlikdə yollandıq muzeyə. Bizi muzeyin rəisi Mirabbas Məmmədov qarşıladı. İlk olaraq muzeyin də yerləşdiyi DSX-nin binasının tarixi barədə məlumat aldıq. Həmsöhbətimiz bildirdi ki, bina 1878-ci ildə ticarət məqsədilə tikilib.



İkimərtəbəli, kvadratşəkilli bina bakılı tacir, milyonçu Hacı Hacıağa Dadaşovun şəxsi mülkü olub. 1925-ci ildən etibarən Azərbaycan Fövqəladə Komissiyası bu binada fəaliyyət göstərib. Daha sonra binanın daxilində NKVD-nin (Xalq Daxili İşlər Komissarlığı) həbsxanası yaradılıb... Hazırda Dövlət Sərhəd Xidməti bu binada yerləşir.

davamı səh. 6-da

## Sənətə bağlı adam

Yaradıcılıq eşqi daxili təlatüm, narahatlıq, həyata həddən artıq diqqət və sevgidən yaranır. Yalnız belə olan halda insan sənətə bağlana, sənətlə yaşaya, ömrünü bütünlüklə sənətə həsr edə bilər.

Xalq artisti, kinorejissor, aktyor Ramiz Əzizbəyli də taleyinə yazılan 73 illik ömür payının 60 ilini sənətə həsr etdi. Sənətkarı ilk dəfə onsuz qeyd olunacaq doğum günü (20 iyul) ərəfəsində yad edirik...

Yaradıcılıq filmoqrafiyasına 100-dən artıq film daxil olan sənətkar kino fəaliyyətində çəkildiyi, səsləndirdiyi, rejissor kimi quruluş verdiyi və mahnılar ifa etdiyi ekran əsərlərinə fərdi dəst-xətti ilə baxımlılıq gətirib, uğur qazandırıb.

səh. 7

## Gəncədə şəhid mədəniyyət işçisinin barelyefi qoyulub




səh. 3

## Şuşa şəhəri 2022-ci ildə "İslam Mədəniyyətinin Paytaxtı" olacaq

səh. 8

## Diplomatiya könüllüləri Hərb Tarixi Muzeyində



səh. 4

# Müharibə bitib, sülh olmalıdır – bu, qalib ölkənin, müzəffər xalqın təklifidir

## İlham Əliyev: “Əgər Ermənistan bunu etmək istəmirsə, özü bilər, ancaq yaxşı fikirləşsinlər, sonra gec olar”



Şərqi Zəngəzur bizim tarixi torpağımızdır, Qərbi Zəngəzur bizim tarixi torpağımızdır. Biz tarixi unuda bilmərik. Kiminsə siyasi maraqlarının girovuna çevrilə bilmərik. Gəlsinlər, açsınlar tarixi sənədləri, xəritələri, baxsınlar, sovet hökuməti Zəngəzuru nə vaxt Azərbaycandan qoparıb Ermənistana verib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu sözləri iyulun 14-də Bakının Binəqədi rayonunun Xocasən qəsəbəsində şəhid ailələri və müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim olunması mərasimində çıxışı zamanı deyib.

Dövlət başçısı qeyd edib ki, bu, yaxın tarixdir, bu torpaqlar 101 il əvvəl Ermənistana verilib: “Biz həqiqəti deyirik. Bizim dədə-baba torpağımızdır: bütün Zəngəzur – Şərqi və Qərbi Zəngəzur. İndi Ermənistanda deyirlər ki, İlham Əliyev ərazi iddiası ilə çıxış edir. Əgər Şərqi Zəngəzur varsa, deməli, Qərbi Zəngəzur da var. Bəli, Qərbi Zəngəzur bizim dədə-baba torpağımızdır. Demişəm ki, biz oraya qayıtmalıyıq. Bunu hələ on il bundan əvvəl demişəm. Mənim çıxışlarım hamısı mətbuatda var. Demişəm ki, bizim dədə-baba torpağımızdır, biz oraya qayıtmalıyıq və qayıdacağıq və qayıdırıq. Heç kim bizi dayandıra bilməz. Mütləq qayıdacağıq, çünki bunun başqa yolu yoxdur. İndi bütün kommunikasiyalar açılandan sonra, əlbəttə, biz qayıdacağıq və Azərbaycan əhalisi öz dədə-baba torpaqlarına qayıdacaq”.

Prezident qeyd edib ki, bu məsələ Azərbaycan, Ermənistan və Rusiya rəhbərlərinin imzaladığı 10 noyabr 2020-ci il tarixli Bəyanatda da əksini tapıb: “Bəyanatda göstərilir ki, bütün qaçqınlar öz doğma torpaqlarına qayıtmalıdırlar. Bizim doğma torpağımız Zəngəzurdur, bizim doğma torpağımız Göyçə mahalıdır, İrəvandır. Biz qayıdacağıq, əlbəttə”, – deyə İlham Əliyev bildirib.

İkinci Qarabağ müharibəsinin bizim şanlı tariximiz olduğunu və bu şanlı Qələbənin Azərbaycan xalqının tarixində əbədi qalacağını vurğulayan İlham Əliyev deyib ki, Birinci və İkinci Qarabağ müharibələrinin şəhidlərinin qisasını döyüş meydanında aldıq və bununla fəxr edə bilərik: “Öz yaxınlarını itirmiş insanlar, hesab edirəm, bununla təsəlli tapa bilərlər. Çünki onların qəhrəmanlığı, onların şücaəti və fədakarlığı torpaqlarımızın azad olunmasına xidmət etdi. Məhz onların qanı bahasına biz torpaqları almışıq, geri qaytarmışıq. Hər birimiz deyirdik, ürəyimizdə deyirdik və sözdə də deyirdik ki, nəyin bahasına olursa-olsun, biz torpaqlarımızı geri almalıyıq. Əlbəttə, hər bir insanın həyatdan getməsi böyük faciədir – həm onun ailəsi üçün, yaxınları üçün, qohumları üçün, həm də cəmiyyət üçün. Ancaq bizim şəhidlərimiz haqq yolunda həlak olublar, Vətən uğrunda həlak olublar. Onların qəhrəmanlığı nəticəsində bu gün bizim bayrağımız azad edilmiş torpaqlarda ucaldılır. Onların qəhrəmanlığı nəticəsində xalqımız, dövlətimiz müzəffər dövlət, müzəffər xalq kimi yaşayır və bundan sonra əbədi yaşayacaq”.

Vətən uğrunda canından keçmiş insanların ailələrinə, bu yolda sağlamlığını itirmiş, müharibədə qəhrəmanlıq göstərmiş insanlara daim diqqət göstərildiyini deyən dövlət başçısı bildirib ki, istifadəyə verilən bu yaşayış kompleksi də nəzərə alınmaqla, 10 min şəhid ailəsi və müharibə əlili dövlət tərəfindən mənzillərlə, fərdi evlərlə təmin olunub və bu proses davam edir: “2020-ci ildə 1572 şəhid ailəsi və Qarabağ qazisi evlərlə, mənzillərlə təmin olunub. Bu il 3 minədək şəhid ailəsi, müharibə əlili evlərlə, mənzillərlə təmin ediləcək və bu yaşayış kompleksini də nəzərə almaq şərtilə artıq bu kateqoriyadan olan 1300-dən çox ailə mənzillərlə təmin olunub. Bununla bərabər, atıq neçə ildir ki, Qarabağ qaziləri fərdi avtomobillərlə təmin edilir və ümumilikdə 7200 avtomobil verilib.

Mən bu rəqəmləri səsləndirməklə bir daha göstərmək istəyirəm ki, Azərbaycanda bu sahədə görülmüş işlər nümunəvi xarakter daşıyır. Mən ölkəmizi hansısa bir başqa ölkə ilə müqayisə etmək istəmirəm. Ancaq həyat və gördüyümüz işlər onu göstərir ki, bu sahədə Azərbaycanda aparılan siyasət ən humanist siyasətdir, ən ədalətli siyasətdir və vicdanlı siyasətdir. Çünki Vətən uğrunda öz canlarını fəda etmiş qəhrəman övladlarımızın ailə üzvləri dövlət tərəfindən qayğı ilə əhatə olunmalıdır və biz bunu bu gün əyani şəkildə görürük”, – deyə İlham Əliyev əlavə edib.

Prezident vurğulayıb ki, indi yeni dövr başlayıb – quruculuq dövrü, postmünaqişə dövrü: “Mən bunu dəfələrlə demişəm, bir daha demək istəyirəm, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi öz həllini tapıb. Bu münaqişə həll olunub. Bunu da həll edən tərəf bizik, Azərbaycan dövlətidir. Biz bunu birtərəfli qaydada həll etmişik. Əgər kimsə, mən ordan-burdan eşidirəm, yenə də başlayıb ki, məsələ öz həllini tapmalıdır, bu münaqişə həll olunmayıb. Çox yanlış və təhlükəli yoldadırlar. Əgər həll olunmayıbsa, onda qoy bizə izahat versinlər, necə həll olunmalıdır. Biz hesab edirik ki, bu, həll olunub, artıq müharibə dövrü arxada qalıb. Amma buna baxmayaraq, biz müharibəyə hər an hazırıq və hazır olmalıyıq. İyunun 26-da Silahlı Qüvvələr Günündə mən öz açıqlamalarımda bunu demişəm. Biz ordumuzla bağlı yeni planları həyata keçiririk. Ancaq biz hesab edirik ki, münaqişə həll olunub, biz ərazi bütövlüyümüzü bərpa etmişik. Biz Qələbə qazanmışıq. Bizim bu gün gündəlikdə duran hər hansı başqa bir məsələmiz yoxdur. Biz öz sərhədlərimizə çıxmışıq, Ermənistan-Azərbaycan sərhədini nəzarətə almışıq. Biz artıq quruculuq işlərinə başlamışıq”.

Dövlət başçısı qeyd edib ki, əgər münaqişə həll olunmayıb deyilərkən dırnaqarası Dağlıq Qarabağın statusundan söhbət gedirsə, Azərbaycan ərazisində artıq Dağlıq Qarabağ adlı ərazi vahidi yoxdur: “Dağlıq Qarabağ yoxdur, Qarabağ var. İyulun 7-də imzaladığım Fərman əsasında Qarabağ iqtisadi zonası yaradıldı, vəssalam. Bütün Qarabağa aid olan rayonlar orada birləşib”.

Prezident Ermənistanla münasibətlərə dair məsələyə də toxunub: “Mən bir neçə dəfə demişəm ki, biz Ermənistanla sülh müqaviləsini imzalamağa hazırıq. Yəni, bu işlərin başlanmasına hazırıq. Ancaq Ermənistan tərəfindən buna reaksiya yoxdur, rəsmi reaksiya yoxdur. Qeyri-rəsmi kanallarla bizə çatan məlumat budur ki, Ermənistan buna hazır deyil. Hesab edirəm, bu, çox böyük bir səhv olacaq. Necə ki, müharibə ərəfəsində və müharibə dövründə Ermənistan tərəfi böyük səhvlər buraxıb, hərbi cinayətlər törədib. Bu, növbəti böyük səhv ola bilər. Çünki bizim bu təklifimiz yeni real vəziyyətə əsaslanır. Biz hesab edirik ki, məsələ həll olunub, Ermənistan və Azərbaycan arasında sülh müqaviləsi olmalıdır. Bir-birinin ərazi bütövlüyünün tanınması olmalıdır, sərhədlərin tanınması olmalıdır, delimitasiya işlərinə start verilməlidir. Onu da bildirməliyəm ki, delimitasiya işləri ilə bağlı indi beynəlxalq təşkilatlar da müsbət reaksiya verirlər. Əgər Ermənistan bunu etmək istəmirsə, özü bilər, ancaq yaxşı fikirləşsinlər, sonra gec ola bilər. Necə ki, vaxtilə əgər öz xoşları ilə bizim torpaqlarımızdan çıxsaydılar, bu qədər rəzil duruma düşməzdilər”.

İlham Əliyev qeyd edib ki, bizim bu təklifimiz qalib ölkənin təklifidir, güclü tərəfin təklifidir, müzəffər xalqın təklifidir: “Əgər buna Ermənistanda mənfi reaksiya varsa, bunu da özləri bilərlər. Amma yenə də deyirəm, yenə də peşman olacaqlar. Biz isə bundan sonra ancaq və ancaq irəli gedəcəyik. Biz bütün quruculuq işlərimizlə bağlı planları sistemli şəkildə həyata keçiririk və artıq quruculuq işlərinə start verilib. Biz, dediyim kimi, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. İnsanlar ora qayıdacaq, öz dədə-baba torpağında rahat yaşayacaqlar”.

# Kitabxana işi sahəsində Azərbaycan-Türkiyə əməkdaşlığı müzakirə edilib

Mədəniyyət naziri Anar Kərimov iyulun 15-də Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin kitabxana və nəşriyyat işi üzrə əməkdaşlarından ibarət nümayəndə heyətini qəbul edib.



Görüşdə Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin Kitabxanalar və yayımlar baş idarəsinin müdiri, Türkiyə Milli Kitabxanasının direktoru Ali Odabaş, Kitabxanalar və yayımlar baş idarəsinin müdir müavini Taner Beyoğlu, nümayəndə heyətinin digər üzvləri, eləcə də Azərbaycan Mədəniyyət Nazirliyinin Kitab dövriyyəsi və nəşriyyatla iş şöbəsinin müdiri Akif Marifli, Milli Kitabxananın direktoru Kərim Tahirov iştirak ediblər.

Nazir qonaqları salamlayaraq Türkiyə ilə Azərbaycan arasında mövcud olan dostluq və qardaşlıq münasibətlərinin mədəniyyət sahəsində əməkdaşlıqda da ön planda olduğunu vurğulayıb, mədəni əlaqələrin gündən-günə inkişaf edərək genişlənməsindən məmnunluğunu ifadə edib.

Görüş zamanı iki ölkənin kitabxanaları arasında həyata keçirilən informasiya, təcrübə, kitab mübadiləsinin böyük əhəmiyyət kəsb etdiyi vurğulanıb.

Ali Odabaş görüşə görə təşəkkürünü bildirib, qeyd olunan sahələrdə ölkəmizlə əməkdaşlığın və birgə layihələrin davam edəcəyinə əminliyini vurğulayıb.

Görüşdə Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin TEDA proqramı (Türk mədəniyyət, sənət və ədəbiyyat əsərlərinin dünyaya tanıdılmasına dəstək layihəsi) üzrə əməkdaşlıq, KOHA (beynəlxalq avtomatlaşdırılmış kitabxana-informasiya sistemi) sisteminin öyrənilməsi, bu təcrübə əsasında yeni milli sistemin yaradılması və ölkəmizdə tətbiqi imkanları müzakirə edilib. Türkiyənin xalq kitabxanaları ilə Azərbaycanın mərkəzləşdirilmiş kitabxana sistemləri arasında təcrübə paylaşımı, həmçinin Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkasına Türkiyənin tanınmış nəşriyyatlarının cəlb edilməsi məsələləri barədə də fikir mübadiləsi aparılıb.

# Nizami Gəncəvi və Yunus Əmrə: ortaq dəyərlərimiz

## Türk dünyasının iki dahisinin bənzərsiz irsindən söz açıldı

*əvvəli səh. 1-də*

Kərim Tahirov Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin kitabxana, nəşriyyat işi üzrə mütəxəssisləri və Türkiyə Milli Kitabxanası direktorunun rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfərə gəldiyini də diqqətə çatdırdı.

Dəyirmi masada çıxış edən Mədəniyyət Nazirliyi Kitab dövriyyəsi və nəşriyyatlarla iş şöbəsinin müdiri Akif Marifli Nizami Gəncəvi və Yunus Əmrə irsinin türk xalqları mədəniyyət xəzinəsini zənginləşdirdiyini dedi. Bildirdi ki, nazirlik tərəfindən hər iki dahinin yaradıcılığının gələcək nəsillərə çatdırılması istiqamətində müxtəlif layihələr həyata keçirilir.

AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli qeyd etdi ki, yüzilliklər boyu yetişən saysız türk şairləri arasında Yunus Əmrənin adı böyük ehtiramla çəkilir. Nizami Gəncəvi və Yunus Əmrə eyni mədəniyyətin nümayəndələridir. Hər iki şairin çoxsaylı oxşar cəhətləri var. Akademik Nizami və Yunus Əmrə poeziyasından nümunələr səsləndirdi. Dedi ki, Nizami öz əsərlərində türkləri hər zaman mərd, cəsur, insansevər kimi təsvir edib. Vurğulandı ki, Yunus Əmrə türk ədəbi dilinin formalaşmasında mühüm xidmətlər göstərib. Onun ana dilində qələmə aldığı şeirlər hər zaman sevilərək oxunur.

Azərbaycan Yazıçılar Birliyi (AYB) sədrinin müavini, “525-ci qəzet”in baş redaktoru Rəşad Məcid “Nizami Gəncəvi İli” və “Yunus Əmrə İli” çərçivəsində həyata keçirdikləri layihələr haqqında məlumat verdi.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun əməkdaşı Afət Kazımbəyli çıxış edərək bildirdi ki, Azərbaycanda “Nizami Gəncəvi İli”, Türkiyədə “Yunus Əmrə İli” elan olunması hər iki ölkə başçısının mədəniyyətə, ədəbiyyata verdiyi önəmin göstəricisidir. Fondun Türk dünyasının tanınmış söz-sənət adamlarının təbliğatı ilə bağlı gördüyü işlərdən söz açan A.Kazımbəyli Yunus Əmrə, Aşıq Ələsgər və qazax şairi Mağcan Cumabayevi əhatə edən “Üç ozan” layihəsi haqqında da məlumat verdi.





Dəyirmi masada çıxış edən Türkiyə Milli Kitabxanasının direktoru Ali Odabaş 15 iyulun türk xalqı üçün tarixi bir gün olduğunu vurğuladı. Bildirdi ki, 2016-cı ilin 15 iyulunda baş verən Türkiyədə dövlət çevrilişi cəhdinin qarşısının alınması türk xalqının demokratiya zəfəri kimi tarixə yazılıb.

Yunus Əmrə irsindən söz açan Ali Odabaş qeyd etdi ki, Yunus Əmrə Türkiyə türkcəsinin qurucusu hesab edilir: “Bizim üçün Yunus Əmrə qədər Nizami də doğmadır və hər iki şairin Türk dünyasında ortaq təbliğatı böyük önəm daşıyır”.

Türkiyəli nümayəndələrin iştirakı ilə avtomatlaşdırılmış kitabxana informasiya sistemləri, beynəlxalq kitab eyniləşdirmə standartları (İSBN, İSSN və s.) üzrə təcrübə mübadiləsi ilə bağlı işgüzar görüş də keçirildi. Görüş zamanı türkiyəli qonaqlar qardaş ölkənin kitabxanaları, tətbiq olunan avtomatlaşdırma sistemləri, yaradılan yeni formalı kitabxanalar barədə məlumat verdilər.

Qeyd edək ki, Türkiyə nümayəndə heyətinin səfəri iyulun 18-dək davam edəcək. İyulun 16-da Türkiyə Mədəniyyət və Turizm Nazirliyi və İLESAM təşkilatı tərəfindən toplanmış 10 min nüsxə kitab Milli Kitabxananın Mədəniyyət Nazirliyi ilə birgə həyata keçirdiyi “Qarabağa kitabla gedək” layihəsi – işğaldan azad edilmiş bölgələr üçün kitab toplama aksiyası çərçivəsində Milli Kitabxanaya təqdim ediləcək.



Çıxışlardan sonra qonaqlar Milli Kitabxananın hər iki şairə həsr etdiyi virtual sərgi ilə tanış oldular. Bildirildi ki, oxucular Milli Kitabxananın saytında yer alan virtual sərgi vasitəsilə hər iki şair haqqında geniş məlumat əldə edə bilərlər.

**Lalə AZƏRİ**

# Milli Kino Mükafatının builki sahibi məlum olub

Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı (ARKİ) Milli Kino Mükafatının 2021-ci il üzrə laureatının adını açıqlayıb.

ARKİ-nin mətbuat xidmətindən bildirilib ki, qurumun İdarə Heyətinin iclasında qəbul olunan yekdil qərara görə, tanınmış kinooperator, Əməkdar incəsənət xadimi Rafael Qənbərov Milli Kino Mükafatına layiq görülüb. Mükafat 2 avqust – Milli Kino Günündə təqdim ediləcək.

Qeyd edək ki, Milli Kino Mükafatı 2012-ci ildən Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı İdarə Heyətinin qərarı ilə təsis edilib. Məbləği 2 min manatdır.

# Uca Yaradana məhəbbət, bəşər övladına mərhəmət

## 20-21 iyul Azərbaycanda Qurban bayramıdır

Gələn həftə İslam aləminin ən müqəddəs bayramlarından biri olan Qurban bayramını qeyd edəcək. Qurban mərasimi Uca Yaradana məhəbbət və itaət, yüksək mənəvi-əxlaqi dəyərlərə hörmət, hər bir bəşər övladına mərhəmət və dözümlülük təlqin edən İslam dininin insanlar üçün hidayət yolu seçilməsi ilə əlamətdardır.

Qafqaz Müsəlmanları İdarəsindən bayramla bağlı yayılan məlumatda bildirilir ki, Qurban bayramı hicri təqvimi ilə zilhiccə ayının 10-na – miladi təqvimlə 20 iyul tarixinə təsadüf edəcək. Qurban bayramı ayrı-ayrı müsəlman ölkələrində 2 və ya 3 gün davam edir.

Azərbaycanda Qurban bayramı münasibətilə iki gün – bu il 20-21 iyul qeyri-iş günü sayılır.

Qeyd edək ki, builki Qurban bayramını dünyada hələ də davam edən pandemiya şəraitində qarşılayırıq. Müqəddəs Həcc ziyarəti bu il də təxirə salınıb.

Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası Qurban bayramına dair aşağıdakı tövsiyələrini də diqqətə çatdırıb. Bildirilir ki, qurban kəsmək, əsasən, Məkkədə zəvvarlara vacibdir. Digər yerlərdə isə imkanı olan adamların qurban kəsmələri sünnət əməl hesab olunur. Qurban ətini kasıb ailələrə paylamaq böyük savabdır.

Qurbanlıq əsasən üç hissəyə bölünür: bir hissəni qurban sahibi özünə götürə bilər, digər hissə kasıb ailələrə, üçüncü hissəsinin isə hədiyyə kimi qohum-əqrəbaya paylanması tövsiyə olunur. Tövsiyədə həmçinin bildirilir ki, Qurban kəsimi 20 iyul tarixindən başlayaraq 3 gün davam edə bilər. İyul ayının 20 və 21-də məscidlərdə birgə bayram namazları qılınacaq.

# "Salam, Azərbaycan!" deyib "Şəki – gözəlliyin sehri"nə çıxaq






*əvvəli səh. 1-də*

Anar Kərimov qeyd etdi ki, Mədəniyyət Nazirliyi tərəfindən mədəni irsimizin qorunmasına böyük diqqət göstərilir: "Ümid edirik ki, işğaldan azad edilən ərazilərmizdəki mədəni irs nümunələri və tarixi abidələr haqqında da gələcəkdə belə kitablar nəşr olunacaq. Bu barədə artıq "İRS" jurnalı ilə danışıqlar aparılır".

Nazir çıxışının sonunda "Salam, Azərbaycan!" və "Şəki – gözəlliyin sirri" kitablarının ərsəyə gəlməsində əməyi keçən bütün redaksiya heyətinə minnətdarlığını bildirdi, yaradıcılıq uğurları arzuladı.

"İRS" və "Azerbaijan Airlines" jurnallarının baş redaktoru Musa Mərcanlı söylədi ki, "İRS" seriyasından olan kitabların nəşri 2013-cü ildən başlayıb: "Bu müddət ərzində artıq 14 kitab işıq üzü görüb. "İRS" jurnalı isə 20 ildir Azərbaycan mədəniyyətini təbliğ edir. Artıq jurnalımız 17 dildə nəşr olunur. "İRS" seriyasından olan kitablar da həmin jurnallarda vaxtilə çap olunmuş materialların əsasında hazırlanıb".

Qarabağın azad olunmasından sonra yeni layihələr haqqında düşündüklərini deyən Musa Mərcanlı qeyd etdi ki, "Qarabağın qara kitabı" adlı nəşr artıq hazırdır. Yaxın aylarda kitab oxuculara təqdim olunacaq.



"Azərbaycan Hava Yolları" QSC-nin vitse-prezidenti Eldar Hacıyev bildirdi ki, nəfis tərtibatı və yüksək bədii-estetik görünüşü ilə diqqəti cəlb edən "Salam, Azərbaycan!" kitabı ölkəmizin tarixini, mədəniyyətini, təbiətini, mətbəxini və müasir inkişafını işıqlandırır: "Əminəm ki, kitabı oxuyan hər bir azərbaycanlı məmnun qalacaq".

"Paşa Həyat Sığorta" ASC-nin İdarə Heyətinin sədri Niyaz İsmayılov vurğuladı ki, Azərbaycanın qədim tarixini, füsunkar təbiətini, çoxəsrlik mədəniyyətini və adət-ənənələrini özündə əks etdirən çap məhsullarının hazırlanması ölkəmizin tanıdılması və təbliği üçün çox önəmlidir. "Salam, Azərbaycan!" və "Şəki – gözəlliyin sehri" kitablarının hazırlanmasına tarixçilər və xarici mütəxəssislər cəlb olunub. Gələcəkdə də bu istiqamətdə yeni uğurlu layihələr həyata keçiriləcək.

Daha sonra çıxış edən "İRS Publishing House" nəşriyyatının əməkdaşı İan Peart səkkiz ilə yaxındır "İRS" jurnalı ilə əməkdaşlıq etdiyini diqqətə çatdırdı. Bildirdi ki, gələcəkdə jurnalın nəşrlərinin birində işğaldan azad olunmuş Qarabağ torpağı haqqında məqalə yazmağı qarşısına məqsəd qoyub.

Sonda tədbir bədii hissə ilə davam etdi. Xanəndələr Kamilə Nəbiyeva və Zahid Quliyev birbirindən gözəl ifaları ilə tədbirə rəng qatdılar. Xanəndələri tarda Əməkdar artist Sahib Paşazadə, kamançada Xəyyam Məmmədov, klarnetdə Zahid Qubadlı, nağarada isə Əməkdar artist Kamran Kərimov müşayiət etdilər.

**Nurəddin MƏMMƏDLİ**

# Gənclər və mədəniyyətin formalaşdırılması

## Mədəniyyət naziri "Special Edition Talks"da çıxış edib

Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov iyulun 14-də İslam Əməkdaşlığı Gənclər Forumu (İYCF) tərəfindən təşkil edilən "Xüsusi silsilə çıxışlar" (Special Edition Talks) çərçivəsində fəxri qonaq qismində "Gənclər və mədəniyyətin formalaşdırılması" mövzusunda çıxış edib.

Parlaq gələcəyin qurulmasında və mədəniyyətin dayanıqlı inkişafında gənclərin həlledici rolundan söhbət açan Anar Kərimov əvvəlcə bu sahədə dünyada və ölkəmizdə müşahidə olunan müasir meyillərdən danışıb. Yaradıcı gənclərin dəstəklənməsi naminə Mədəniyyət Nazirliyi tərəfindən təkcə COVİD-19 pandemiyası dövründə 30-dan çox layihənin reallaşdırıldığı qeyd edilib.

Beynəlxalq səviyyədə gənclərin mədəniyyətdə rolunun artırılması üçün Azərbaycanın dəstəyi ilə həyata keçirilən layihələrdən söz açan nazir son illər dünyada cərəyan edən müxtəlif proseslər, rəqəmsallaşma, IV Sənaye İnqilabı kimi hadisələrin fonunda mədəniyyətin üzləşdiyi çağırışlardan da bəhs edib. Texnoloji inqilablar əsrində mədəniyyətə yeni baxışın formalaşdırılması və mədəni dəyərlərin qorunmasının önəminə diqqət çəkilib. Bütün dünyada insanların artan məşğuliyyətləri və azalan vaxtı çərçivəsində gündəlik həyat tərzlərinin onları robotlaşdırmaması üçün mədəniyyətin ruhlandırıcı və yüksək estetik zövq formalaşdıran təsirlərinin güclənməsinin zərurətə çevrildiyi vurğulanıb.

Anar Kərimov çıxışında həmçinin Azərbaycanın təşəbbüsü ilə 2008-ci ildə əsası qoyulan "Bakı Prosesi" qlobal platforması və bu çərçivədə dünyanın nüfuzlu beynəlxalq təşkilatları ilə birgə paytaxtımızda keçirilən ənənəvi Dünya Mədəniyyətlərarası Dialoq Forumu, habelə bu Forumda gənclər üçün təşkil olunan panellər haqqında məlumat verib.

Mədəni müxtəlifliyin qorunması istiqamətində ölkəmizin beynəlxalq miqyasda olduqca fəal olduğunu bildirən nazir deyib ki, Ermənistan otuz ilə yaxın işğal altında saxladığı Azərbaycan ərazilərində mədəni irsi planlı şəkildə məhv edib. Mədəniyyətə qarşı bu təcavüz Azərbaycanın öz torpaqlarını 44 günlük Vətən müharibəsində azad etməsinə qədər davam edib.

Mədəniyyətin sülhə dəstək verdiyi kimi, sülhün də mədəniyyətin inkişafı üçün əsas şərt oluğunu vurğulayan Anar Kərimov müharibələrin və vandalizmin mədəniyyəti hədəf seçdiyini, bütün dünyada bunun qarşını birdəfəlik almaq məqsədilə Mədəniyyət Nazirliyi tərəfindən "Mədəniyyət üçün sülh" (#Peace4-Culture) qlobal çağırışının və çağırış çərçivəsində "Sülh üçün yarat" (#Create4Peace) kampaniyasının elan edildiyini diqqətə çatdırıb. Bildirib ki, bu çağırış BMT-nin Sivilizasiyalar Alyansı və İCESCO kimi beynəlxalq təşkilatlar tərəfindən dəstəklənib.

Sonda mədəniyyət naziri onlayn görüşdə iştirak edən gəncləri maraqlandıran sualları cavablandırıb.

# "Qaliblər" düşərgəsinin iştirakçıları Yanardağ qoruğunda

Paytaxtın Xəzər rayonunun Şüvəlan qəsəbəsindəki Humanitar fənlər təmayüllü gimnaziyada Vətən müharibəsi şəhidlərinin övladları üçün təşkil olunan "Qaliblər" düşərgəsinin hər günü maraqlı proqram və ekskursiyalarla yadda qalır.

Düşərgə "For Azerbaijan" Xeyriyyə Təşkilatının təşəbbüsü, Dövlət Miqrasiya Xidmətinin təşkilati dəstəyi, Təhsil, Rabitə, Nəqliyyat və Yüksək Texnologiyalar, Ekologiya və Təbii Sərvətlər, Mədəniyyət nazirlikləri, Sosial Xidmətlər, Bakı Nəqliyyat və Dövlət Turizm agentlikləri və digər qurumların birgə səyi ilə təşkil edilib.

"Qaliblər" düşərgəsinin iştirakçıları iyulun 14-də "Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunda olublar. Qoruqla tanış olan uşaqlar üçün əyləncəli proqram da təşkil edilib.

Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev Yanardağda uşaqlarla görüşdən təəssüratını sosial şəbəkə hesabından paylaşıb: "İnanıram ki, dünənki gün uşaqların yaddaşında həmişə xoş və maraqlı xatirələrlə qalacaq. Vətən müharibəsində şanlı Zəfəri bizə yaşadan şəhidlərimizin övladları bizə əmanətdir. Onların qayğısına qalmaq hamımızın borcudur. Allah bütün şəhidlərimizə rəhmət eləsin".

# Qazaxıstan Türk Mədəniyyəti və İrsi Fondu ilə bağlı protokolu təsdiqləyib

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun maliyyələşdirilməsi ilə bağlı protokol Qazaxıstan Respublikası tərəfindən təsdiqlənib.

Fonddan bildirilib ki, "Üzv dövlətlərin Fondun büdcəsinə məcburi ödənişlərinin həcminə dair Protokol"un təsdiqlənməsi ilə bağlı sənədi Qazaxıstan Respublikasının Baş naziri Askar Mamin imzalayıb.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun fəaliyyətinin tənzimlənməsi ilə bağlı protokol 28 noyabr 2020-ci ildə İstanbulda imzalanıb. Protokola əsasən, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun büdcəsi təşkilata üzv olan ölkələrin ödənişləri əsasında formalaşdırılacaq.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü, Qazaxıstan, Qırğızıstan və Türkiyə dövlət başçılarının dəstəyi ilə yaradılıb. Fondun maliyyələşdirilməsi ilə bağlı protokol bundan öncə Azərbaycan və Türkiyə prezidentləri tərəfindən təsdiqlənib.

# Gəncədə şəhid mədəniyyət işçisinin barelyefi qoyulub



Gəncənin Cavad xan qəsəbəsində Vətən müharibəsi şəhidi, Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğu Nizami filialının bələdçisi işləmiş Hikmət Lətif oğlu Məmmədovun yaşadığı evin qarşısında barelyefinin açılışı keçirilib. Barelyef heykəltəraş Qasım Qasımov tərəfindən hazırlanıb.

Gəncə Regional Mədəniyyət İdarəsi və Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğunun birgə təşkilatçılığı ilə keçirilən tədbirdə idarənin rəisi Vasif Cənnətov, mədəniyyət işçiləri, qoruğun əməkdaşları, şəhidin ailə üzvləri və ictimaiyyət nümayəndələri iştirak edib.

Mərasimdə çıxış edən Vasif Cənnətov Vətən torpağının azadlığı uğrunda canını fəda edən qəhrəman oğulların adının əbədiləşdirildiyi, onların ailələrinin diqqət və qayğı ilə əhatə olunduqlarını bildirib. Qeyd edib ki, Mədəniyyət Nazirliyi tərəfindən şəhid mədəniyyət işçilərinin xatirəsinin əbədiləşdirilməsi istiqamətində lazımi tədbirlər görülür.

Digər çıxış edənlər Hikmət Məmmədovla bağlı xatirələrini bölüşüblər.

Qeyd edək ki, Hikmət Məmmədov Vətən müharibəsinə könüllü gedib. Oktyabrın 2-də Murovdağ istiqamətində döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Oktyabrın 4-də Gəncənin Şəhidlər xiyabanında dəfn edilib.

Hikmət Məmmədov ölkə başçısının sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Hərbi xidmətlərə görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.

# Sumqayıtda general Polad Həşimovun xatirə muzeyi açılıb



İyulun 14-də Sumqayıt şəhərində Azərbaycanın Milli Qəhrəmanı, şəhid general-mayor Polad Həşimovun xatirə muzeyinin açılışı olub. Muzeydə şəhid generalın büstü qoyulub.

Milli Qəhrəmanın şəhid olmasının ildönümündə Polad Həşimovun təhsil aldığı Sumqayıt şəhər 28 nömrəli tam orta məktəbdə keçirilən mərasimdə şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov, millət vəkilləri, hüquq-mühafizə orqanları və digər qurumların rəhbər şəxsləri, generalın ailə üzvləri, döyüş yoldaşları və ictimaiyyət nümayəndələri iştirak edib.

Açılışdan öncə büstün önündə məktəblilərin ifasında ədəbi-bədii kompozisiya nümayiş olunub. Sonra xatirə muzeyinin rəmzi açılışını bildirən lent kəsilib, tədbir iştirakçıları muzeylə tanış olublar.

Muzeydə şəhid general-mayor Polad Həşimovun uşaqlıq və hərbi xidmət dövrünə aid fotolar, şəxsi əşyaları, sənədlərin surətləri, kitablar nümayiş olunur.

Mərasimdə çıxış edənlər Milli Qəhrəmanın həyatından, döyüş yolundan və 44 günlük Vətən müharibəsində şanlı Ordumuzun Qələbəsindən bəhs ediblər.

Həmin gün Sumqayıt şəhəri 13-cü mikrorayonda Polad Həşimovun yaşadığı binanın qarşısında xatirə lövhəsinin və Polad Həşimovun adını daşıyan küçədə barelyefinin açılışı olub.

Mərasimə şəhər rəhbərliyi, ombudsman Səbinə Əliyeva, P.Həşimovun ailə üzvləri, ictimaiyyət nümayəndələri qatılıblar. Məktəblilərin ifasında ədəbi-bədii kompozisiya nümayiş etdirilib.

Polad Həşimov Qəbələ rayonunun Vəndam kəndində anadan olub. Ailəsi Sumqayıt şəhərinə köçəndən sonra buradakı 28 və 34 nömrəli orta məktəblərdə təhsil alıb. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirən P.Həşimov general-mayor ali hərbi rütbəsinədək yüksəlib. P.Həşimov 14 iyul 2020-ci il tarixdə Ermənistan-Azərbaycan sərhədinin Tovuz rayonu istiqamətində düşmən təxribatlarının qarşısını alarkən qəhrəmancasına şəhid olub. Azərbaycan Respublikası Prezidentinin 9 dekabr 2020-ci il tarixli sərəncamı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülüb.

# İçərişəhərin dünya irs abidəsi kimi idarə olunması

## Abidə Menecerləri Forumunda təqdimat



UNESCO, İCCROM və Çin Xalq Respublikası tərəfindən UNESCO-nun Dünya İrs Komitəsinin 44-cü sessiyası çərçivəsində 4-cü Abidə Menecerləri Forumu təşkil edilib.

"Dünya irsinin idarə olunması – dəyişikliklərə və davamlılığa hazır olma" mövzusunda forum onlayn şəkildə gerçəkləşib. Forumda dünyanın müxtəlif ölkələrindən 100-ə qədər abidə meneceri, o cümlədən "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi Beynəlxalq əlaqələr şöbəsinin müdiri Elsevər Məmmədov iştirak edib.

Qoruq idarəsindən bildirilib ki, forumda E.Məmmədov İçərişəhərin dünya irs abidəsi kimi idarə olunması və görülən işlərə dair təqdimatla çıxış edib.

# Böyük Mərdəkan qəsri və Tuba şah məscidinin bərpasına başlanılır

Yaxın günlərdə Böyük Mərdəkan qəsri və Tuba Şah məscidinin bərpasına başlanılacaq. Bərpa işləri Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin nəzarəti altında Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) tərəfindən həyata keçiriləcək.

Bir müddət əvvəl Dövlət Xidməti ilə Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) arasında Böyük Mərdəkan qəsri və Tuba şah məscidində bərpa işlərinin aparılması haqqında niyyət məktubu imzalanıb. Ötən müddət ərzində hər iki tarixi abidənin bərpası ilə bağlı layihələndirmə aparmaq üçün TİKA tərəfindən təyin olunmuş podratçı şirkətin mütəxəssisləri qala və məsciddə ölçü, tədqiqat işləri həyata keçirilib, bərpa ilə bağlı layihə, cizgi və planların hazırlanmasına başlanılıb.



Daha sonra hazırlanmış layihə yerli mütəxəssislərlə müzakirə olunub.

Böyük Mərdəkan qəsri və Tuba Şah məscidi ərazisində aparılan bərpa işləri ilə bağlı ərazidə iki ədəd məlumatlandırma lövhəsi quraşdırılıb.

Bu, Azərbaycanda tarixi abidələrin Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) tərəfindən ilk bərpa layihəsidir. Gələcəkdə də bu istiqamətdə əməkdaşlığın davam etdirilməsi nəzərdə tutulur.



Bakının Mərdəkan qəsəbəsində yerləşən eyniadlı qala tarixi mənbələrə görə, XII əsrdə – 1187-1188-ci illərdə Şirvanşah I Axsitan tərəfindən tikilib. Axsitanın düşmən üzərindəki qələbəsi şərəfinə ucaldılmış qaladan müxtəlif vaxtlarda müdafiə məqsədilə, eləcə də müşahidə məntəqəsi, bəzi dövrlərdə isə qəsr kimi istifadə edilib. XV əsrə aid Tuba şah məscidi isə 1481-1482-ci illərdə inşa olunub.

## Qafqaz Albaniyası ilə bağlı layihə

Təhsil İnstitutu azad edilmiş ərazilərin mədəni sərvəti, o cümlədən Qafqaz Albaniyası irsi haqqında məlumatlandırma, təbliğat və maarifləndirmə məqsədilə layihələrə başlayır.

İnstitutdan bildirilib ki, ilk layihə olaraq Qafqaz Albaniyası haqqında kitabların yazılması, eləcə də Azərbaycanın tarixi və mədəni, o cümlədən Qafqaz Albaniyası irsi haqqında maarifləndirici vebinarların təşkili planlaşdırılır.

Layihənin planına əsasən, cari ilin iyul-dekabr ayları ərzində institut tərəfindən bir sıra mövzular üzrə vebinarlar keçiriləcək. Azərbaycan və rus dillərində təşkil olunacaq vebinarlar Qafqaz Albaniyasının Şimali Azərbaycanda ilkin dövlət qurumu kimi tarixi Qafqaz Albaniyasının əhalisi və tarixi-siyasi coğrafiyası, Qafqaz Albaniyasının maddi mədəniyyəti və tarixi abidələri, Qafqaz Albaniyasından keçən ticarət yolları, alban şəhərləri, alban hökmdarları və onların Azərbaycanın dövlətçilik tarixində rolu, Albaniyada xristianlıq, ərəb işğalı və s. mövzuları əhatə edəcək.

## Diplomatiya könüllüləri Hərb Tarixi Muzeyində

Xarici İşlər Nazirliyi və ADA Universitetinin birgə təşkilatçılığı ilə keçirilən "Diplomatiya həftəsi" çərçivəsində XİN-in nəzdində fəaliyyət göstərən diplomatiya könüllüləri Müdafiə Nazirliyinin bəzi müəssisələrində olublar.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, gənclər Müdafiə Nazirliyinin Hərb Tarixi Muzeyini də ziyarət ediblər.

Gənclər Vətən müharibəsində iştirak etmiş bir qrup hərbi qulluqçu ilə görüşüblər. Müharibə iştirakçıları könüllüləri maraqlandıran sualları cavablandırıblar. Könüllülər Vətən müharibəsi dövründə yaşanmış hadisələrin bir hissəsini özündə əks etdirən qısametrajlı filmə baxıblar.

# Mədəniyyət naziri "Diplomatiya həftəsi"ndə iştirak edib

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və ADA Universitetinin birgə təşkilatçılığı ilə "44 günlük Vətən müharibəsi və müharibədən sonra Azərbaycanın xarici siyasəti" mövzusunda "Diplomatiya həftəsi" keçirilir.

İyulun 12-dən 26-dək davam edəcək layihə müddətində Azərbaycanın Vətən müharibəsi dövründə xarici siyasəti, habelə müzəffər Ali Baş Komandanın rəhbərlik etdiyi Azərbaycan Ordusunun qazandığı tarixi Zəfər haqqında müxtəlif dövlət qurumlarının rəhbər şəxslərinin, diplomatik korpus təmsilçilərinin iştirakı ilə görüşlər, bir sıra mədəni proqramlar, ekskursiyalar və s. nəzərdə tutulub.

Azərbaycanda fəaliyyət göstərən könüllülər təşkilatları nümayəndələrinin qatıldığı "Diplomatiya həftəsi"ndə müxtəlif mövzularda təqdimatlar keçirilir.




İyulun 14-də "Diplomatiya həftəsi"nin növbəti günü Azərbaycanın mədəniyyət sahəsinə həsr olunub. Tədbirdə əsas qonaq qismində mədəniyyət naziri Anar Kərimov iştirak edib.

Anar Kərimov "Azərbaycanın mədəni irsinə qarşı erməni təcavüzü" mövzusunda təqdimatla çıxış edib.

Nazir tarixi irsimizə qarşı erməni vandalizmini əyani nümayiş etdirən təqdimatda işğaldan azad olunmuş ərazilərdə abidələrimizin hazırkı vəziyyəti və onların bərpa olunması üçün dövlətimizin həyata keçirəcəyi işlərdən danışıb.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı Zəfərdən, torpaqlarımızın otuz ilə yaxın davam edən işğalına son qoyulmasından bəhs edən Anar Kərimov vurğulayıb ki, bu qalibiyyət tariximizdə yeni bir səhifə açıb. Bu gün tariximizin ən şərəfli günlərini yaşayan respublikamız bütün dünyada qalib dövlət, xalqımız isə məğrur xalq kimi tanınır.

Nazir təqdimatdan sonra tədbirə qatılan gəncləri maraqlandıran sualları cavablandırıb.

### Bölgələrdən xəbərlər

## "Nizami Gəncəvi poemaları rəsmlərdə"

Ağstafa Regional Mədəniyyət İdarəsi Qazax rayon Heydər Əliyev Mərkəzi və Qazax Dövlət Rəsm Qalereyasının birgə təşkilatçılığı ilə keçirilən "Nizami Gəncəvi poemaları rəsmlərdə" mövzusunda onlayn rəsm müsabiqəsi başa çatıb.




"Nizami ili" çərçivəsində 1-9 iyul tarixində keçirilən müsabiqəyə yeniyetmə və gənclər dahi şairin əsərləri əsasında çəkdikləri 20-yə yaxın əl işini təqdim ediblər. Beş nəfərdən ibarət münsiflər heyəti I, II və III yerlər üzrə qalibləri müəyyənləşdirib.

İyulun 14-də Qazax rayon Heydər Əliyev Mərkəzində qaliblərin mükafatlandırılması mərasimi keçirilib. Ağstafa Regional Mədəniyyət İdarəsinin rəisi Elbəy Əli, idarənin Qazax və Tovuz rayonu üzrə nümayəndələri Valeh Vəliyev, Adil Həsənov, Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Qazax rayon komitəsinin sədri İsgəndər Qurbanov və Qazax Dövlət Rəsm Qalereyasının direktoru Münəvvər Xəlilovanın iştirak etdiyi tədbirdə qaliblərə diplomlar təqdim olunub.

## "Bəşəriyyətin böyük arifi"

Xaçmaz Regional Mədəniyyət İdarəsi Quba rayon MKS-nin Mərkəzi Kitabxanası Uşaq şöbəsinin təşkilatçılığı ilə B.Səfəroğlu adına rayon Mədəniyyət Mərkəzinin foyesində "Nizami yaradıcılığı rəsmlərdə" adlı sərgi-müsabiqə və "Bəşəriyyətin böyük arifi – Nizami Gəncəvi" başlıqlı kitab sərgisi təşkil edilib.



Gəncə Regional Mədəniyyət İdarəsi Goranboy Dövlət Rəsm Qalereyası "Nizami Gəncəvi İli" çərçivəsində rayonun Nizami parkında rəsm sərgisi təşkil edib. Goranboy rayon Heydər Əliyev Mərkəzində "Nizami Gəncəvi yaradıcılığı Azərbaycanın əqli mülkiyyəti və bəşəriyyətin mədəni sərvətidir" mövzusunda dəyirmi masa təşkil olunub.

Masallı Regional Mədəniyyət İdarəsi Yardımlı rayon Heydər Əliyev Mərkəzində "Nizami Gəncəvi İli" ilə əlaqədar keçirilən tədbirdə mərkəzin rəhbərliyi və əməkdaşları, gənc könüllülər iştirak ediblər.



Ağdaş Regional Mədəniyyət İdarəsi Zərdab rayon MKS-nin 4 saylı şəhər kitabxana filialı rayonun Həsən bəy Zərdabi adına istirahət parkında "Dünyanın bir incisi, Nizaminin "Xəmsə"si" başlığı altında kitab sərgisi təşkil edib.

## Qarabağın yeni yolları

İşğaldan azad edilmiş ərazilərdə yol infrastrukturunun yenidən qurulması istiqamətində genişmiqyaslı işlər davam edir. Bu layihələrdən biri Şükürbəyli-Cəbrayıl-Hadrut yeni avtomobil yolunun inşasıdır. Yolun təməli martın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Füzuli və Xocavənd rayonlarına səfəri zamanı qoyulub.



Dövlət başçısının tapşırığına əsasən, sözügedən avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınmaqla 4 hərəkət zolaqlı olmaqla I texniki dərəcəyə uyğun inşa edilir.

Başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolunun Cəbrayıl rayonunun Şükürbəyli kəndindən keçən hissəsindən götürməklə Xocavənd rayonunun Hadrut qəsəbəsinə qədər uzanır. 39,7 kilometr uzunluğunda yeni yolu Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin "13 N-li Xüsusi Təyinatlı Yol İstismarı" MMC ilə subpodratçı olaraq yol tikintisi sahəsində ixtisaslaşmış yerli şirkət "Körpü-Bina-Tikinti" MMC çəkir. Hazırda yolboyunca torpaq işləri aparılır. Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolu Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisindən keçir. Avtomobil yolu Hadrut qəsəbəsi və Cəbrayıl şəhəri də daxil olmaqla sözügedən rayonların 20-ə yaxın yaşayış məntəqəsini əhatə edəcək.

# Böyük yolun başlanğıcı

Böyük dövlət xadimi, müdrik siyasətçi, ulu öndər Heydər Əliyevin 14 iyul 1969-cu ildə sovet Azərbaycanına rəhbərliyə gəlməsi ölkəmizin tarixində müstəsna əhəmiyyətə malikdir. Bu tarixdən etibarən Azərbaycan hərtərəfli inkişaf yoluna qədəm qoyub, bugünkü uğurlarımızın etibarlı təməlləri atılıb.

Əlamətdar tarixin 52-ci ildönümü münasibətilə bölgələrdəki mədəniyyət müəssisələrində müxtəlif tədbirlər keçirilib.



Kürdəmir Regional Mədəniyyət İdarəsi Kürdəmir rayon Heydər Əliyev Mərkəzində "Heydər Əliyev zirvəsi" adlı dəyirmi masa keçirilib. Çıxış edənlər ümummilli lider Heydər Əliyevin Vətənə və xalqa həsr etdiyi mənalı ömür yolundan, Azərbaycanın inkişafı üçün göstərdiyi müstəsna xidmətlərdən bəhs ediblər. Beyləqan rayon Heydər Əliyev Mərkəzi "Unudulmaz böyük tarixi şəxsiyyət" mövzusunda elmi-praktik konfrans keçirib.

Lənkəran Regional Mədəniyyət İdarəsi Astara rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə keçirilən "Zəmanəmizin dahi şəxsiyyəti" mövzusunda videokonfransda böyük siyasətçinin Azərbaycan xalqı və dövlətçiliyi qarşısında xidmətlərindən söz açılıb.

Gəncə Regional Mədəniyyət İdarəsi Gəncə şəhər Mədəniyyət Mərkəzində ulu öndər Heydər Əliyevin sovet Azərbaycanına rəhbərliyə gəlişinin 52-ci ildönümü ilə əlaqədar dəyirmi masa keçirilib. Goranboy rayon Heydər Əliyev Mərkəzində "Ulu öndər Heydər Əliyev – milli ideologiyamızın və müstəqilliyimizin baş memarı" mövzusunda seminar təşkil olunub. Goranboy rayon Mərkəzi Kitabxanasının əməkdaşları isə "Tərəqqi yolunun başlanğıcı" adlı tədbir keçiriblər.

Ağstafa Regional Mədəniyyət İdarəsi Ağstafa rayon Heydər Əliyev Mərkəzi MKS-nin 2 nömrəli şəhər kitabxana filialı ilə birgə "14 iyul 1969-cu il – tərəqqi yolunun başlanğıcı" adlı tədbir keçirib. Qazax və Tovuz rayon Heydər Əliyev mərkəzləri və Qazax rayon MKS-nin birgə təşkilatçılığı ilə "14 iyuldan başlanan yol" mövzusunda videokonfrans keçirilib.

Ağdaş Regional Mədəniyyət İdarəsi Ağdaş rayon Mərkəzi Kitabxanası Oxuculara xidmət şöbəsinin təşkilatçılığı və filial kitabxanaların iştirakı ilə "Böyük yolun başlanğıcı" adlı videokonfrans keçirilib. Zərdab rayon Mərkəzi Kitabxanasında Oxuculara xidmət şöbəsi "Ulu öndər Heydər Əliyevin hakimiyyət illəri unudulmazdır" başlığı altında tədbir təşkil edib.



İsmayıllı Regional Mədəniyyət İdarəsi Şamaxı rayon Heydər Əliyev Mərkəzinin direktoru Könül Eyvazova, bələdçi Şəhla İsmayılova əmək qabaqcılı, vaxtilə Heydər Əliyevlə iki dəfə görüşmüş, "Qırmızı bayraq" ordeni və bir çox mükafatlarla təltif olunmuş Zöhrə Zamanovanın ailəsində qonaq olublar. S.Zamanova ulu öndərlə bağlı xatirələrini bölüşüb.

Biləsuvar Regional Mədəniyyət İdarəsi Salyan rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə gerçəkləşən "Azərbaycan tarixinin şanlı səhifəsi" adlı videokonfransda ulu öndərin xalqımıza həsr olunan ömür yoluna nəzər salınıb.

Bərdə Regional Mədəniyyət İdarəsi Yevlax şəhər Mədəniyyət Mərkəzinin filialları ulu öndər Heydər Əliyevin ölkəmizə birinci rəhbərliyə gəlişinin ildönümü ilə əlaqədar videoçarxlar hazırlayıblar.

Xaçmaz Regional Mədəniyyət İdarəsi Siyəzən rayon Heydər Əliyev Mərkəzinin təşəbbüsü ilə "Tərəqqi yolunun başlanğıcı – əbədiyaşar lider Heydər Əliyev" mövzusunda videokonfrans keçirilib.

# Vətən sizinlə qürur duyur




Masallı Regional Mədəniyyət İdarəsi Masallı Xalq teatrında Tovuz döyüşləri zamanı qəhrəmancasına şəhid olmuş mayor Anar Novruzova ithaf edilmiş "Qəhrəmanlıq qalası" adlı virtual ədəbi-bədii kompozisiya təqdim olunub. Biləsuvar Regional Mədəniyyət İdarəsi Salyan rayon Mərkəzi Kitabxanasının təşkilatçılığı ilə Vətən müharibəsinin şəhid giziri Xudayar Yusifzadənin doğum gününə həsr edilmiş tədbir keçirilib.

Kürdəmir Regional Mədəniyyət İdarəsi Kürdəmir rayon Heydər Əliyev Mərkəzində 2020-ci ilin Tovuz döyüşlərinin ildönümünə həsr olunan "Böyük Zəfərin başlanğıc günü" adlı dəyirmi masa keçirilib. Dəyirmi masada Kürdəmir rayon Heydər Əliyev Mərkəzi və Kürdəmir MKS-nin 1 saylı filialının əməkdaşları iştirak ediblər.

Ağdaş Regional Mədəniyyət İdarəsi Zərdab rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə "Tovuzdan Şuşaya şəhidlərin qanı ilə çəkilən Zəfər yolu" mövzusunda videokonfrans keçirilib.

Lənkəran Regional Mədəniyyət İdarəsinin rəisi Şahin Şahbazov, Lənkəran şəhər Heydər Əliyev Mərkəzinin direktoru Reyhanə Sadıxova və digər əməkdaşlar Vətən müharibəsi şəhidi Mirməhəmmədəli Rzazadənin doğum günündə ailəsi ilə görüşüblər.

Ağcabədi Regional Mədəniyyət İdarəsi Ağdam rayon MKS-nin 49 saylı Əhmədavar kənd kitabxanası Tovuz şəhidlərinin əziz xatirəsinə həsr olunmuş videoçarx ərsəyə gətirib.

Ağstafa Regional Mədəniyyət İdarəsinin tabeliyində fəaliyyət göstərən mədəniyyət müəssisələrinin əməkdaşları Tovuz döyüşlərinin şəhidləri Namiq Əhmədov, Elşad Məmmədov, Yaşar Babayev, Elçin Mustafazadə və İlqar Zeynallının məzarlarını ziyarət ediblər. Qazax rayon MKS "Vətən sərhəddən başlayır" adlı onlayn tədbir keçirib. Tovuz rayon Azərbaycan Aşıq Sənəti Dövlət Muzeyi, Tovuz Rayon Tarix-Diyarşünaslıq Muzeyi və Abulbəyli kənd Mədəniyyət evinin birgə təşkilatçılığı ilə "Bu Zəfəri bizə yaşadan şəhidlərimiz" adlı onlayn tədbir keçirilib. Tovuz rayon MKS isə "Qəhrəmanlar unudulmur" mövzusunda anım tədbiri təşkil edib.

Bərdə Regional Mədəniyyət İdarəsi Yevlax şəhər MKS-nin kənd kitabxana filialları şəhid gizir Xudayar Yusifzadənin doğum günü ilə əlaqədar videoçarxlar hazırlayıb.

İsmayıllı Regional Mədəniyyət İdarəsi Qəbələ rayon Mədəniyyət Mərkəzində Tovuz döyüşləri şəhidi, Milli Qəhrəman, general-mayor Polad Həşimovun xatirəsinə həsr olunmuş tədbir təşkil olunub.

Şəki Regional Mədəniyyət İdarəsi Şəki MKS-nin təşkilatçılığı ilə "Qəhrəmanlıq salnaməmiz – Tovuz döyüşləri" adlı videokonfrans keçirilib. Qax rayon Şıxlar kənd klubu və kənd kitabxanasının birgə təşkilatçılığı ilə Vətən müharibəsi iştirakçısı Elçin Ata-



yevlə görüş olub. Oğuz rayon MKS-nin Şirvanlı kənd kitabxanasında Tovuz döyüşləri şəhidlərinin anım mərasimi keçirilib.

Gəncə Regional Mədəniyyət İdarəsi Gəncə şəhər Heydər Əliyev Mərkəzi və Mir Cəlal Paşayevin Gəncədəki ev-muzeyinin təşkilatçılığı ilə "Unudulmayan qəhrəmanlar" adlı tədbir keçirilib. Gəncə şəhər Mədəniyyət Mərkəzinin tabeliyində fəaliyyət göstərən sənətkarlıq klubunda Tovuz döyüşlərinin ildönümü ilə bağlı tədbir keçirilib. Goranboy rayon Mərkəzi Kitabxanasının Uşaq şöbəsi "Vətən sizinlə qürur duyur" adlı tədbir keçirib. Goranboy rayon Mərkəzi Kitabxanası isə "Tovuz şəhidlərini qürurla anırıq" başlıqlı onlayn tədbir təşkil edib.

# Müxtəlif səpkili tədbirlər

Ağstafa Regional Mədəniyyət İdarəsi Tovuz rayon Mərkəzi Kitabxanasının Uşaq şöbəsində "Yay məktəbi" çərçivəsində "Kitab oxumaq bizə nə öyrədir?" mövzusunda intellektual oyun keçirilib.

Şəki Regional Mədəniyyət İdarəsi Qax rayon Güllük kənd Mədəniyyət evi və kənd kitabxanasının birgə təşkilatçılığı ilə "Xəlqimin toy kimi bir adəti var" adlı diskussiya keçirilib. Balakən şəhər 2 saylı Diyarşünaslıq klubunda "Narkomaniya bəşəriyyətin bəlasıdır" adlı onlayn tədbir təşkil olunub.

Bərdə Regional Mədəniyyət İdarəsi Yevlax şəhər MKS-nin tabeliyində olan Qoyunbinəsi kənd kitabxana filialı oxuculara səyyar kitabxana xidməti təşkil edib.




Sabirabad Regional Mədəniyyət İdarəsi tərəfindən həyata keçirilən "Mədəni kənd – mədəni mühit" layihəsi çərçivəsində Saatlı rayonunun Şirinbəyli kəndində tədbir keçirilib. Sabirabad Regional Mədəniyyət İdarəsinin rəisi Fərid Qurbanzadə çıxış edərək layihə barədə ətraflı məlumat verib.

Sumqayıt Regional Mədəniyyət İdarəsi Abşeron rayon Ceyranbatan qəsəbə Uşaq incəsənət məktəbinin şagirdi Fatimə Abasova Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası nəzdindəki məktəb-studiyasının 40 illiyinə həsr edilən "Müxtəlif ölkələrin musiqi ədəbiyyatını öyrənirik" gənc musiqiçilərin beynəlxalq müsabiqəsinin diplomantı adını qazanıb.

Xaçmaz Regional Mədəniyyət İdarəsinin təşəbbüsü ilə həyata keçirilən "Kəndlərdə mədəniyyət günləri" layihəsinin növbəti ünvanı Xaçmaz rayonunun Niyazabad kəndi olub. "Sənə Zəfər yaraşır, Azərbaycan!" mövzusunu əhatə edən tədbir çərçivəsində kitab, rəsm, əl işləri və yerli mətbəx nümunələri nümayiş etdirilib. Quba rayon MKS-nin Talabıqışlaq kənd kitabxanası tərəfindən səyyar kitabxana xidməti təşkil olunub.

Hazırladı: N.MƏMMƏDLİ

# Qarabağ Zəfərindən “Nizami ili”nə rəssam baxışı



Azərbaycan Rəssamlar İttifaqı və Karikaturaçı Rəssamlar Birliyinin üzvü, beynəlxalq sərgilərin, müsabiqələrin laureatı Kirman Abdin 62 illik ömrünün yarıdan çoxunu təsviri sənətə həsr edib.

Ə.Əzimzadə adına Dövlət Rəssamlıq Texnikumunda və Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki ADMİU) Rəssamlıq fakültəsində təhsil alan Kirman Abdin əsasən plakat ustası kimi tanınır. Sənətkarın yaradıcılığında prioqrafiya (ağac, dəri, tikmə üzərində yandırma üsulu ilə naxış açma) və qrafika əsərləri aparıcı yer tutur. O, xalqımızın tarixi-mədəni yaddaşında iz salan bir çox əlamətdar hadisələrə əsərlər həsr edib.



2020-ci ilin Vətən müharibəsində qazandığımız parlaq Qələbədən təsirlənən rəssam “Zəfər tarixinin şahidi” qrafik əsərini yaradıb. Prioqrafiya üsulu ilə işlənən əsərdə Zəfərin şahidi ağsaçlı anadır. Müəllif Qələbənin Şuşanın azad olunması ilə təmin edildiyini mədəniyyət paytaxtımızın rəmzi sayılan xarıbülbül çiçəyi, 28 illik işğal zamanı nisbətən salamat qalmış Yuxarı Gövhər ağa məscidi və Azərbaycan-Türkiyə birliyinin simvollaşdıran iki qardaş ölkənin birləşmiş bayraqları fonunda təqdim edib.

Rəssam “Nizami Gəncəvi İli”nə də əsər həsr edib. “Nizami–880” adlı triptix də prioqrafiya nümunəsidir. Mütəfəkkir şairin portretinin aparıcı yer tutduğu əsərdə Nizami irsinin bəşəriyyəti humanizmə, sülhə və elmə çağırması vurğulanır. Şairin ziyasının dilindən, dinindən və milliyyətindən asılı olmayaraq hər kəsə çatdığına işarə vurulur.

Qeyd edək ki, Kirman Abdinin Rəssamlar İttifaqının Vəcihə Səmədova adına sərgi salonunda (2012, 2016) və Naxçıvan Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına sərgi zalında (2016) sərgiləri keçirilib. O, 2006-cı ildən Beynəlxalq Karikaturaçılar Təşkilatları Federasiyası (FECO) Azərbaycan qrupunun üzvüdür.

# Televiziya reytinqlərinin ölçülməsində Türkiyə təcrübəsi

Azərbaycanda televiziya reytinqlərinin ölçülməsi sahəsində Türkiyə təcrübəsi öyrənilərək tətbiq ediləcək. Bu məsələ iyulun 13-də Milli Televiziya və Radio Şurasının (MTRŞ) və Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə Azərbaycan–Türkiyə Birgə Media Platforması çərçivəsində keçirilən seminarın mövzusu olub.

Tədbirdə Türkiyədə televiziya reytinqlərini öyrənən TİAK-ın (“Televizyon İzleme Araştırmaları” Anonim Şirkəti) rəhbər şəxsləri, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının, İqtisadiyyat Nazirliyinin, Medianın İnkişafı Agentliyinin, Milli Televiziya və Radio Şurasının rəsmi nümayəndələri, televiziya kanallarının rəhbərləri iştirak ediblər.

Milli Televiziya və Radio Şurasının sədri İsmət Səttarov iştirakçıları salamlayaraq Azərbaycan-Türkiyə Birgə Media Platforması çərçivəsində keçirilən tədbirlərin davamı kimi seminarın əhəmiyyətini vurğulayıb. Bildirib ki, bütün dünyada olduğu kimi, Azərbaycanda da audiovizual sənayenin inkişafının baza şərtlərindən biri keyfiyyətli və mötəbər televiziya izləmə reytinqlərinin ölçülməsidir. Azərbaycanda bu sahədə olan mövcud problemlərin teleradio reklam bazarının zəif inkişaf etməsinə gətirib çıxardığı vurğulanıb. Bu sahədə təcrübəsi olan Türkiyənin teleradio sahəsi və orada mövcud reytinq ölçmə sistemi Azərbaycanda da maraqla öyrənilir. Şura sədri qeyd edib ki, TİAK nümayəndələrinin Bakıda bu mövzuda təqdimat keçirməsi və Türkiyə təcrübəsinin müzakirəsi xüsusi önəm kəsb edir.

Seminarda Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov da qardaş Türkiyənin media sahəsində atdığı uğurlu addımlarının Azərbaycanda da yaxından izlənildiyini və bu təcrübənin öyrənilməsinin əhəmiyyətini qeyd edib.

TİAK-ın baş direktoru Dursun Güleryüz dəvətə və tədbirin təşkilinə görə təşəkkürünü bildirib, TİAK şirkəti və onun fəaliyyəti haqqında geniş məlumat verib. Daha sonra TİAK-ın Texniki komitəsinin üzvü Ogün Doğan Akyol qurumun televiziya izləmələrinin ölçülməsi sahəsindəki fəaliyyətinə həsr edilmiş geniş videotəqdimat keçirib.

Tədbirin ikinci hissəsində Türkiyə tərəfinin etdiyi təqdimat və müasir reytinq ölçmə sisteminin Azərbaycanda mümkün tətbiqi barədə müzakirələr aparılıb.

# Dünyanı dolaşan rənglər səltənəti



XX əsr təsviri sənət tariximizdə iz qoyan tanınmış sənətkarlardan biri də Xalq rəssamı Vidadi Nərimanbəyovdur. Fırça ustasının parlaq tabloları ölkəmizdə, həmçinin xaricdə bir sıra muzey və qalereyaları bəzəyir.

Azərbaycan Xalq Cümhuriyyətinin xaricə təhsil almağa göndərdiyi gənclər arasında Qarabağın tanınmış şəxslərindən şuşalı Əmir bəy Nərimanbəyovun oğlu Fərman da var idi. O, Fransanın Tuluza Universitetinin mühəndis-elektrik ixtisasına qəbul olunur. Təhsil aldığı müddətdə fransız dilini mükəmməl öyrənir. Təhsilini başa vurduqdan sonra İrma Lya Rude adlı fransız xanımla ailə qurur. 13 iyul 1926-cı ildə onların oğul övladı dünyaya gəlir. Adını Vidadi qoyurlar. 1929-cu ildə ailə Bakıya köçür. 1930-cu ildə ailədə ikinci oğul – gələcəyin daha bir böyük rəssamı Toğrul Nərimanbəyov doğulur.

Avropa təhsilli valideynlərinin zəngin mənəvi aləmi Vidadinin təlim-tərbiyəsinə müsbət təsir edir. O, erkən çağlardan təsviri sənətə maraq göstərir. Bu arzu-xəyalla yaşayarkən vətən göylərində qara buludlar sıxlaşmağa başlayır, 30-cu illərin repressiya yelləri əsir. Fərman Nərimanbəyov da Cümhuriyyət tərəfindən Avropada təhsil almağa göndərilən digər azərbaycanlılar kimi repressiyaya məruz qalır. Həbs olunur və Sibirə sürgün edilir. 1941-ci ildə Fransa vətəndaşlığından hələ çıxmayan İrma Lya Rude də Bakıda həbs olunur. Onu övladlarından ayıraraq Özbəkistanın Səmərqənd şəhərinə sürgün edirlər. O, 1961-ci ilə qədər bu şəhərdə yaşamağa məcbur olur. Bu çətin və məşəqqətli illərdə inamını itirməyən Fərman Nərimanbəyovun ailəsi hər cür çətinliyə qatlaşır.

Vidadi 1943-cü ildə orta məktəbi bitirib Ə.Əzimzadə adına Bakı Rəssamlıq Texnikumuna qəbul olunur. Lakin burada bir il oxuyur. 1941-1945-ci illər müharibəsinin qızğın çağı idi. O da bir çox həmyaşıdları kimi cəbhəyə yollanır.

Müharibədən sonra təhsilini Vera Muxina adına Sankt-Peterburq Ali Rəssamlıq Sənaye Məktəbində və Tbilisi Rəssamlıq Akademiyasında davam etdirən V.Nərimanbəyov dövrünün böyük sənətkarlarından dərs alır.

Müharibənin od-alovunu görmüş rəssam yaradıcılığında daim bu mövzuya müraciət edib. Rəssam II Dünya müharibəsinə həsr etdiyi tablolarda sovet əsgərinin döyüşkən və qorxmaz obrazlarını yaratmağa çalışıb. Sözügedən tablolar həm də sərt üslubda işlənməsinə görə seçilir. Obrazların üzlərində, əllərində, hətta geyimlərin qırışlarında dərin bir sərtlik görünür. Rəssam bəlkə də savaşın ağrı-acısını daha qabarıq vermək üçün sərt üsluba müraciət edib.



Müəllifin “1941-ci il”, “Bakılıların xatirəsinə”, “Yolda”, “Müharibə yollarında”, “1945-ci ilin baharı”, “Müharibə uşaqları”, “Adsız yüksəkliklərdə”, “Yolasalma”, “Xatirə”, “Bayraq” əsərlərində insanda müharibəyə qarşı dərin nifrət, döyüşə çağırış məqamları daha qabarıqdır. Əsərlərdə qara və qırmızı rənglərin üstünlüyü aydınca sezilir. Bu rəsmlər həm də onu göstərir ki, V.Nərimanbəyov sovet dövrünün bir çox yaradıcı insanları kimi ideologiyanın yalan təbliğatına ürəkdən inanaraq onun yolunda öz istedadını sərf edib.

V.Nərimanbəyov hələ tələbə ikən “Düşmənin sevinci...” tablosu ilə tanınmışdı. O, bu əsərdə açıq səmada, günəşin fonunda qara bulud layları təsvir edib. Tablonun qarşısında isə iki insan obrazı görünür. Onlardan biri yağış, digəri quraqlıq arzulayır. Müəllif bu mənzərəni inandırıcı, gələcəyə inam və ümid həvəsi ilə işləyib. Seyrçilər əsərə yaradıcı əməyin məhsulu kimi yox, həyat həqiqətlərinin rəmzitək baxır. Müəllifin fikri isə çox asanlıqla başa düşülür.



Tanınmış rəssamın 1963-cü ildə ərsəyə gətirdiyi “Yolda” adlı monumental, irihəcmli tablosu sənətsevərlər tərəfindən böyük maraqla qarşılanıb. Əsərin süjet və kompozisiya quruluşu çox sadə olsa da, düşündürücüdür...

Araşdırmalarda V.Nərimanbəyovun səmimi, mehriban və qayğıkeş bir insan olduğu vurğulanır. O, zəhmətkeş olmaqla yanaşı, işinə böyük məsuliyyətlə yanaşıb. Daim mövzu axtarışlarında olub. Əsərlərində zəhmət adamlarının müxtəlif anları və ovqatları sənətkarlıqla işlənib. Onun qəhrəmanlarının çöhrələrində sevinc, fərəh və kədər duyulur.

Rəssamın “Xatirələr” əsərində isə gərginlik və həyəcan yaşadan cizgilər aydın sezilir. Ömür-gün yoldaşı müharibəyə gedən qadının intizardan qəddi əyilib. Həyatdan küskün, insanlardan narazı günlər yaşayır. Atasının nə vaxt qayıdacağını soruşan balasına nə cavab verəcəyini bilmir. Ananın gözləri, baxışları həyat yoldaşının getdiyi yollara dikilir. Sənətkar bu duyğuları olduqca inandırıcı cizgilərlə verərək insanlarda müharibəyə nifrət oyada bilib. Əsər 100-dən çox ölkənin sərgi salonlarında uğurla nümayiş olunub.

Rəssam ölkəmizin milli problemlərinə də biganə qalmayıb. Görkəmli təsviri sənət ustasının 20 Yanvara həsr etdiyi “Qatillər” əsəri bir çox ölkələrdə nümayiş etdirilib. Əsər insanlarda amansız sovet rejiminə qarşı nifrət oyadır. Ermənilərin ölkəmizə qarşı apardığı işğalçılıq müharibəsinə, ərazilərimizin işğalına əsərləri ilə münasibət bildirən rəssamın Azərbaycanın müstəqilliyini tərənnüm edən “Vətən bayrağı altında” rəsmi də maraq doğurur. İrihəcmli əsərdə üçrəngli bayrağımızın altında döyüşkən Azərbaycan əsgərləri təsvir olunub.

Görkəmli sənətkarın əsərləri içərisində portret janrında yaratdığı nümunələr ayrıca yer tutur. “İnteryerdə qız”, “Qaçaq Nəbi”, “A.Semyonovun portreti”, “Briqadir S.Məmmədovun portreti”, “Ana portreti”, “Tutqun üz” əsərləri yüksək ustalıqla işlənib. Özəlliklə “Tələbə qız”, “Nəzifənin portreti” əsərləri seyrçini öz qarşılarında daha çox dayanmağa, obrazın ovqat və daxili dünyasını duymağa məcbur edir.

Rəssamın keçmiş SSRİ məkanı ilə yanaşı, Macarıstan, Çexiya, Bolqarıstan, Rumıniya, Finlandiya və digər ölkələrdə də fərdi sərgiləri keçirilib.

Əməyi yüksək qiymətləndirilən fırça ustası 1982-ci ildə “Xalq rəssamı” fəxri adına layiq görülüb, 2001-ci ildə isə “Şöhrət” ordeni ilə təltif edilib.

Əsərləri Moskva Dövlət Tretyakov Qalereyasında, MDB və bir sıra Avropa ölkələrinin muzeylərində saxlanılan Xalq rəssamı Vidadi Nərimanbəyov 13 dekabr 2001-ci ildə Bakıda vəfat edib.

**Savalan FƏRƏCOV**

**Aşıq Ələsgər – 200**

# Saz-söz sənətinin Dədə Ələsgəri

Aşıq Ələsgər (1821-1926) Azərbaycan aşıq sənətində Dədə Ələsgər kimi də tanınmaqdadır. Onun Dədə, haqq aşığı olaraq belə yüksək titullarla tanınması sənətkarın kamil ustadlığının göstəricisidir.

“İstəsən ki, Ələsgəri görəsən, Göyçə mahalımdı, mahalım mənim” – yazan ustad Göyçə mahalının Ağkilsə kəndində Alməmmədin ailəsində doğulmuş, uşaq yaşlarından Kərbəlayı Qurban adlı bir var əhlinin nökəri olmuşdur. Elə nökərçilik illərində könül dolusu, dəli sevdayla aşiq olsa da, sevgi kamına çatmayan Ələsgər sözdən-şeirdən kam almağa üz tutmuşdur. Bəlkə də sevgisiylə baş-başa ola bilmədiyindən Tanrıdan əvəzində yeniyetmə Ələsgərə saza-sözə tuş olmaq taleyi yazılıbmış.

Saz-söz arifinin bir də bəxti onda verib ki, o, Aşıq Alı kimi sanballı ustad aşığa tuş gəlmişdir. Məhz özünün təkrarsız ifaçılığa malik olması və Aşıq Alının yanında bu ulu sənəti dərindən mənimsəməsi onu zaman keçdikcə Dədə Ələsgər səviyyəsinə qaldırmışdır. Aşıq Ələsgərin Dədə Ələsgərliyi onun bu sənətə sadəcə çalıb-oxumaq kimi yox, “pürkamal, mərifət elmi” kimi dəyər verməsindən və bunu əməlində də göstərməsindən bilinirdi:

*Aşıq olub diyar-diyar gəzənin,*
*Əvvəl, başda pürkamalı gərəkdir.*
*Oturub-durmaqda ədəbin bilə,*
*Mərifət elmində dolu gərəkdir.*

Aşıq Ələsgər nədən hər sənətkara deyilməyən Dədə aşıqdır? Əvvəla, o, ustadı Aşıq Alının etimadını, həyatın insanlıq görkünü qazanmışdı. Ələsgər “Bir şəyird ki, ustadına kəm baxa, Onun gözlərinə ağ damar, damar” deyərək ustadlığın uca mərtəbəsini dolğunluqla əks etdirir. O, əvvəlki ustadların sə-



nət cərgəsində sinədəftər, bədahətən söz qoşan, saz-söz dəryası, poetik zənginliyi ilə də özünə layiqli yer tutduğuna, sənət boğçasını yeniliklərlə zənginləşdirdiyinə görə Dədə sənətkardır. O, sevgidə kam görmədən yaşamağı, yanmağı bacardığı kimi, sözü ilə yandırmağı da bacaran, sevgiyə söz qoşmağı ilə bərabər, sözə də sevgi gətirən məhəbbət aşığıdır. “Üzü ondan dönsə” də, “yar yanında günahkar” olsa da, “qadasın alan” aşiqdir:

*Səhər-səhər bağda gəzən nazənin,*
*Dəstinlə qönçəni üz, qadan alım.*
*Süsəndən, sünbüldən, lalə, nərgizdən,*
*Siyah tellərinə düz, qadan alım.*

O, bir söz sərrafı, söz vaqifi idi. Təbiəti qəlbən duyan, onun özünəməxsusluğunu böyük həssaslıqla oxucuya, dinləyicilərə duyuran sənətkarın bu mövzuda şeirləri maraqlıdır. Aşıq Ələsgərin dədəlik yazı-yozu fəhmində yaylaq seyrəngah kimi gözəlləşir, dağ təpəsindəki qar xəstə üçün dərmana çevrilir:

*Axşam-sabah, çeşmə, sənin başına,*
*Bilirsənmi necə canlar dolanır?*
*Büllur buxaq, almayanaq, ay qabaq,*
*Şahmar zülfü pərişanlar dolanır...*

Aşıq Ələsgər səmimiyyəti, həssaslığı, böyük ürəyi, qayğıkeşliyi, təəssübkeşliyi, yurdsevərliyi ilə seçilən sənətkardır. O, yaxşılığı və yamanlığı aydın sezən, yeri düşdükcə aydınladan ozandır:

*Can deməklə candan can əskik olmaz,*
*Məhəbbət artırar, mehriban eylər.*
*Çor deməyin nəfi nədir dünyada?*
*Abad könlü yıxar, pərişan eylər...*

Kamil ustaddan dərs alan sənətkarın özü də ustad olaraq neçə-neçə şəyirdinə ulu ozan-aşıq dünyasının sirlərini öyrətmişdir. Aşıq Alıdan qazandığı təcrübəni zaman-zaman cilalayan Dədə Ələsgər Aşıq Nəcəf, Aşıq Qurban, Aşıq Yusif, Aşıq Ağayar, Aşıq Əsəd, Aşıq Qiyas və başqalarını sənətkar kimi yetişdirmiş, bu sənətin yaşamasına öz töhfəsini vermişdir. Bunu o, “Adım Ələsgərdi, mərdi-mərdana, On iki şəyirdim işlər hər yana” deməklə də təsdiq etmişdir.

Böyük sənətkar ömrünün son vaxtlarında ailədaxili faciələrlə üzləşərək sıxıntılı, əzablı həyat sürmüşdür. Eyni zamanda 1918-ci ildə ermənilərin digər yaşayış məskənlərimiz kimi Göyçə mahalını da viran qoymaları hamı kimi Aşıq Ələsgəri də köçkün həyatı yaşamağa məcbur etmişdir. O, əvvəlcə Kəlbəcərin Yanşaq kəndində yaşamış, sonra Tərtərə köçərək bir müddət burada qalmalı olmuşdur. Sovet hökuməti qurulandan sonra Ələsgər yenidən doğma yurduna qayıtmışdır.

1980-ci illərin sonlarında erməni şovinizmi yenidən baş qaldıranda Ermənistan (Qərbi Azərbaycan) ərazisində öz ata-baba yurdlarında yaşayan soydaşlarımız el-obasından didərgin salınır. Bədnam ermənilər xalqımızın maddi mədəni irsini yerlə yeksan edir, böyük sənətkarın ocağı, qəbirüstü abidəsi də bu vandalizmin qurbanına çevrilir.

Azərbaycan ədəbiyyatının zənginliyi yazılı və şifahi sözün qoşa qanad kimi birgəliyindən ibarətdir. Bu birgəlikdə Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Sarı Aşıq, Aşıq Alı kimi böyük ustadlar kimi Aşıq Ələsgər də el sənətkarı olaraq ellə, yurdla birgə şənlənib qəmlənmişdir. O, məhz bu sadəliyi ilə alilik qazanmışdır.

Dədə Ələsgər aşıq şeirinin bütün biçimlərində yaddaqalan, diqqətçəkən, müdrik kəlamlı nümunələr yaratmışdır. Aşıq-şairin dilinin rəvanlığı, oynaqlığı, sözlərinin musiqi köklü olması bəstəkarlarımızın da diqqətini çəkmişdir. Bir sıra bəstəkarlar şeirləri əsasında çoxsaylı mahnılar yazmışlar və bu nəğmələri tanınmış müğənnilərimiz ifa etmişlər.

Aşıq Ələsgər aşıq sənətinin, sazın-sözün dədəlik nümunəsidir. O özündən əvvəlki və sonrakı klassikləri bir araya gətirən, birləşdirən sənət körpüsüdür. Məhz o körpüdə aşıq sənətinin dünənini, bu gününü və sabahını görmək mümkündür. Aşıq Ələsgərin zəngin irsi sözlə incəsənətin birliyinin təcəssümüdür. Ustadlar ustadı dil olaraq türklüyün, din olaraq İslamın görküdür.

Aşıq Ələsgər yazan-yozan ustad olaraq bütün zamanlarda insanların diqqətində qalacaq ozandır...

**Etibar ƏLİYEV**
**Gədəbəy Aşıq Məktəbinin direktoru,**
**Azərbaycan Aşıqlar Birliyinin üzvü**

# Musiqi məktəblərinin şagirdləri beynəlxalq müsabiqədə uğur qazanıblar

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Müslüm Maqomayev adına 26 nömrəli onbirillik Musiqi məktəbinin violin sinfinin şagirdləri Rusiyanın Rostov-Don şəhərində onlayn formatda keçirilən "Art-Performance" beynəlxalq incəsənət müsabiqəsində uğurla iştirak ediblər.

Məktəbin “Fantaziya” skripkaçılar ansamblı müsabiqənin Qran-pri mükafatına, Səid Məmmədov və Aylin Məmmədli isə I yerə layiq görülüb. Ansamblın bədii rəhbəri və məktəbin violin ixtisası üzrə müəllimi Mahirə Tabıyeva, konsertmeyster müəllimlər Emil Həşimov və Şəlalə Əhmədova diplom ilə təltif olunublar.

Sözügedən müsabiqəyə qatılan paytaxtdakı Səid Rüstəmov adına 13 nömrəli Uşaq musiqi məktəbinin şagirdləri də yüksək nəticə göstəriblər. Fortepiano ixtisası üzrə müəllim Rəna Məmmədovanın şagirdləri Məleykə Rüstəmli, İbrahim Məmmədov I yer, Emin Nəsibli, Əfruz Mirzəzadə II yer, müəllim Zeynəb Həmidovanın şagirdləri Nika Keyvani, Amirmehdi Həsənzadə I yer, “Ansambl” nominasiyasında violin ixtisası üzrə müəllim Ülfət Nağıyevanın şagirdi Göyçək Məmmədova və fortepiano ixtisası üzrə İbrahim Məmmədov I yerə layiq görülüblər.

№53 (1830)
16 iyul 2021
www.medeniyyet.az

# 30-cu illərin qara yelindən qalanlar

## Siyasi Repressiya Qurbanları Muzeyindən acı təəssürat

### Bakıda bir muzey var



*əvvəli səh. 1-də*

Mirabbas müəllim deyir ki, Siyasi Repressiya Qurbanları Muzeyi 2019-cu ilin 24 mayında Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyinə həsr edilən tədbirlər çərçivəsində yaradılıb. Ötən əsrin 30-cu illərində siyasi repressiyalar zamanı bütün məhbuslar burada saxlanılıb. Bu həbsxanada onlara fiziki, mənəvi işgəncələr verilib, güllələnib, yaxud da sürgün olunublar. Muzeyin yaradılmasında əsas məqsəd həmin illərdə baş verən hadisələri insanlara çatdırmaq və repressiyaya məruz qalan soydaşlarımızın xatirələrini yaşatmaqdır.

### "Sibir" və "32 000"

Muzeyə daxil olarkən qatarın pəncərəsində insan barmaqları təsvir edilmiş iki maraqlı kompozisiya ilə qarşılaşırıq. Birinci kompozisiyada barmaqların üzərində "Sibir" yazısı, digərində isə "32 000" rəqəmi əks olunub.

Muzeyin rəisi qeyd edir ki, "Sibir" yazısı repressiya illərində sürgün olunan insanların cəzaçəkmə yerlərinə göndərilməsi ilə bağlıdır: "1937-ci ildə SSRİ Xalq Ədliyyə Komissarlığı tərəfindən o vaxt Azərbaycana rəhbərlik etmiş Mir Cəfər Bağırova məktub göndərilir. Məktubda qeyd olunur ki, 1934-37-ci illərdə kənd yerlərində bir çox insan haqsız yerə məhkum olunub, həmin insanların işlərinə yenidən baxılsın. Məktubda 32 minə yaxın insanın adı qeyd olunur. Kompozisiyadakı rəqəm bununla bağlıdır".

Dindirilmə otağına yollanırıq. Həmsöhbətimiz bildirir ki, həmin illərdə istintaqa cəlb olunan şəxslərin izahatları bu otaqda alınıb. Burada simvolik quraşdırılan maket izahatı alınan görkəmli şair-dramaturq Hüseyn Cavidi əks etdirir. Cavid iki il bu qaranlıq və soyuq zindanda saxlanıldıqdan sonra Sibirə – Maqadana sürgün edilib. Soyuq Sibir mütəfəkkir şairə məzar olub...





### "Xalq düşməni"nin həyat yoldaşına mühakiməsiz sürgün

Muzeyin daxilində kitabxana da mövcuddur. Kitabxanada repressiyaya məruz qalan soydaşlarımızın bəzilərinin şəxsi işləri saxlanılır. Burada eyni zamanda həmin dövrə aid 100-ə yaxın kitabı da görmək mümkündür. Bələdçimiz deyir o dövrdə belə bir qayda vardı ki, "xalq düşməni" kimi güllələnən şəxsin həyat yoldaşı məhkəməsiz, mühakiməsiz səkkiz il sürgün olunmalı idi. Şəxsin 3 yaşına qədər övladı yaxın qohumlarına, 3-15 yaş arası uşaqlar isə uşaq evinə verilirdi. Bu cür sürgün olunan qadınlar üçün Qazaxıstanda Akmola vilayətində qısa adı ALJİR adlı (Akmolinskiy laqer jen izmennikov rodinı – Vətən xainləri qadınlarının Akmola düşərgəsi) olan xüsusi düşərgə yaradılmışdı: "Hazırda o düşərgə ərazisində repressiya muzeyi fəaliyyət göstərir. Həmin muzeylə əlaqə saxlayaraq xahiş etdik ki, orada cəza çəkmiş azərbaycanlı qadınların sənədlərini bizə göndərsinlər. Bu günə kimi 44 nəfər azərbaycanlı qadının məlumatını əldə etmişik. Bu qadınların böyük əksəriyyəti respublikanın tanınmış şəxslərinin ailə üzvləri, yaxınları və ya tanışları olublar. Onların bir çoxu həmin düşərgədə vəfat edib, bəziləri isə evlərinə dönə biliblər".

Muzeydə film otağı da var. Burada ziyarətçilər üçün repressiya dövrünə dair 30-a yaxın sənədli film nümayiş olunub. Mirabbas müəllim qeyd edir ki, muzey fəaliyyətə başlayandan kompleksdə 10-a yaxın sənədli film çəkilib.

### Güllələnmə təxirə salınmır...

Muzeyin ən dəhşət və vahimə saçan otağına yollanırıq. Söhbət Azərbaycan xalqının işıqlı gələcəyi üçün qələm çalan, ömrünü elmə, təhsilə sərf edən günahsız insanların ömrünü yarıda kəsən güllələnmə otağından gedir. Otağa daxil olarkən ilk olaraq həkim geyimində insan maketi qarşımıza çıxır. Öyrənirik ki, güllələnmə icra olunduqdan sonra həmin şəxsin ölüb-ölməməyini təsdiq etmək üçün otaqda həkim də fəaliyyət göstərib. O, ölən şəxs haqqında arayış yazaraq imzalayırdı. Ölüm hökmü yerinə yetirildikdən sonra meyit naməlum bir ərazidə basdırılırdı. Bu günə kimi həmin şəxslərin harada basdırılması barədə dəqiq məlumat yoxdur. Həmsöhbətim vurğulayır ki, otaqda təmizlik işləri apararkən 60-70 sm dərinlikdə torpaq qatında qan aşkar olunub. Otaqda güllələnməyə hazır insan maketi nakam şairimiz Mikayıl Müşfiqi xatırladır. Maketə baxarkən bir anlıq düşünürük ki, şair üsyan edib deyəcək:

*Mən gəncəm, bilirəm,*
*istiqbalım var,*
*Hələ bədr olmamış*
*bir hilalım var.*
*Yelkənim açılır,*
*qara yel, əsmə,*
*Mənim bu dəryada*
*bir sandalım var...*

Muzeyi dolaşdıqca sanki kitablardan oxuduğumuz o dəhşətli dövrə qayıdırıq. Qulaqlarımızda repressiya dövründə olmazın işgəncələrə məruz qalmış soydaşlarımızın ah-naləsi eşidilir...

### Cüzi işıq, böyük azadlıq istəyi

İndi isə muzeyin karserlər olan bölməsindəyik. Mirabbas müəllim bildirir ki, məhkumlar müstəntiqlərə istədikləri cavabları vermədikdə günlərlə karserlərə atılıb, burada ac-susuz saxlanılırdılar. 3-4 gün ərzində onlara yalnız bir tikə çörək verilirdi. Hətta məhkumlar işgəncə məqsədilə günlərlə divarlarda quraşdırılan zəncirlərdə asılı vəziyyətdə saxlanılıblar.

Gördüklərimdən, eşitdiklərimdən sonra artıq hiss edirəm ki, nə yeriməyə, nə də danışmağa taqətim qalıb. Muzeyin zalına doğru aram addımlarla hərəkət edirik. Burada kameraların qapılarındakı kiçik pəncərələr diqqətimizi çəkir. Həmin pəncərə açılanda kameraya cüzi işıq düşür. Məhkumlar işığa, azadlığa can atsalar da, qorxunc rejimin pəncəsindən qurtulmaq şansları yox idi...

### Çamadanlar – bir daha evə dönməmək

Muzeydə diqqətçəkən kompozisiyalardan biri çamadanlarla bağlıdır. Öyrənirik ki, repressiya dövründə hər hansı bir şəxsi istintaqa çağıranda, o artıq bir daha evə qayıtmayacağını bilirdi.




Ya həbsxanaya gedəcək, ya da sürgün olunacaq. Ona görə də həmin şəxslər hazır çamadan düzəldib saxlayırdılar. İstintaqa çağrılanda həmin çamadanları da özləri ilə götürürdülər. Kompozisiyada çamadanların nizamsız şəkildə təsviri günahsız insanların acı taleyini əks etdirir.

Əsas zalda müxtəlif məlumat lövhələri də yerləşdirilib. Həmin lövhələrdə repressiyaya məruz qalmış azərbaycanlı hərbi xadimlər, Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən xaricdə təhsil almağa göndərilmiş tələbələr, güllələnmiş mədəni-maarif və ictimai-siyasi xadimlərdən Xədicə Qayıbova, Mədinə Qiyasbəyli, Nemət Məlikova, Panfiliya Tanailidi və Ayna Sultanova haqqında məlumatlar əksini tapıb.

Hər bir divarı, otağı özündə həmin qara, zəhər dadlı illərin ağrıacısını əks etdirən muzeydə olarkən vaxtın necə keçdiyini bilmədik. Amma burada min bir əzaba məruz qalan "günahsız müqəssirlər"in bir dəqiqəsi bəlkə də bir ilə bərabər olub...

Sonda muzeyin iş qrafikini də öyrəndik. Muzey həftənin beş günü, saat 8:00-dan axşamçağı 17:00-dək fəaliyyət göstərir. Muzeyə baş çəkmək istəyənlər qabaqcadan məlumat verməklə kompleksi ziyarət edə bilərlər.

**Nurəddin MƏMMƏDLİ**

# "Səhnədən səngərə" layihəsində şəhid tarzən Toğrul Hacıyev

Mədəniyyət Nazirliyinin "Səhnədən səngərə" layihəsinin altıncı buraxılışı təqdim edilib. Layihə Vətən müharibəsində şəhid olmuş mədəniyyət işçilərinə həsr olunub.




Layihənin növbəti qəhrəmanı kövrək ruhu ilə ürəkləri titrədən tarzən, savaşda şücaəti ilə "Canavar" ləqəbi qazanan Toğrul Hacıyevdir.

Əslən Füzulidən olan Toğrulun ailəsi 1993-cü ildən məcburi köçkün kimi Bakı şəhərində məskunlaşmışdı. Toğrul 1996-cı il dekabrın 24-də Bakıda anadan olmuşdu. 2016-2019-cu illərdə Azərbaycan Milli Konservatoriyasında tar ixtisası üzrə təhsil almış, sonra magistraturaya qəbul olunmuşdu. Füzuli şəhər 3 saylı Uşaq musiqi məktəbində tar müəllimi işləyirdi.

Ata yurdunun və bütövlükdə Qarabağ elinin yağı işğalından azad olunması Toğrulun da arzusu idi. Bu arzu ilə də Vətən müharibəsinə yollandı. 2020-ci il oktyabrın 10-da ata-babalarının doğulduğu Füzuli istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucaldı...

Anasının Toğrulun ardınca bir ovuc su töküb, cəbhəyə yola saldığı yolun üstündə bu gün bulaq axır. Bu gün körpəsindən qocasına qədər hamı Toğrul bulağından su içir...

# Buzovna kəndinin əhvalatları

## Bu dəfə tarixi-mədəni irs fonunda







Qəzetimizin 11 iyun tarixli sayında 95 yaşlı Buzovna kitabxanasından təqdim etdiyimiz reportajda bu qəsəbəyə səyahətimizlə bağlı əlavə yazı da vəd etmişdik. Aktyor, Əməkdar artist Mirzə Ağabəyli, söz verdiyi kimi, bizi doğma yurdu Buzovnanın gəzməli-görməli yerləri ilə qarış-qarış tanış etdi. Günəşin yüksək hərarətinə rəğmən qədim yaşayış məskəninin tarixi məkanları ilə tanış olmağımız üçün səylərini əsirgəmədi. Baxmayaraq ki, Buzovna mənə yad məkan deyildi, amma burada doğulub-böyüyüb yaşa dolmuş bir sakinin bələdçiliyində səyahət tamam başqadır...

Bakı kəndləri içərisində Buzovna kəndi (hazırda Xəzər rayonunda şəhərtipli qəsəbə) qədimliyinə, spesifik xüsusiyyətlərinə görə digərindən fərqlənir. Mənbələrdə Buzovnada əhalinin məskunlaşmasının miladdan əvvəl III əsrə təsadüf etdiyi bildirilir. Yazıda oxuculara qəsəbənin zəngin qədim tarixi-memarlıq abidələri, maraqlı məkanları haqqında söz açacağıq.

Buzovnada IX əsrə aid alban məbədi, Qarapaltar piri (1306), Bürc-qala (XV-XVI əsrlər), Xəlifə Əli və Məhəmməd Mömin türbəsi (XVII), Sahib-əz-zaman məscidi (XVII), XIX əsr İmam Həsən və Məşədi Qərib məscidi, Seyid Qasım, Şeyx Cavad, Seyid Gülşan pirləri, Həzrət Əli qədəmgahı (Əli ayağı piri), Hun qəbiristanlığı və "Təhməzov", "Capayev", "Hacı Nurəli" və "Məşədi Veysəl" adlı hamam binaları var.

***

Üz tutduğumuz ilk ünvan qəsəbənin Nəsranilər məhəlləsində alban məbədi – el arasında "Tərsa piri" adı ilə tanınan məkan oldu. Yerli sakinlərin inancına görə, bu ocaq qorxuluğu götürür, niyyətləri gerçəyə çevirir. Məbədin yanında çıldaq da fəaliyyət göstərir.

Tərsa pirindən sonra 206 nömrəli orta məktəbin qarşısında qəsəbənin görkəmli mədəniyyət xadimlərinin büstləri qoyulan əraziyə gəlirik. 1990-cı illərdə ucaldılan büstlərin müəllifi Xalq rəssamı Xanlar Əhmədovdur. İsmayıl Səmədzadə, Haşım bəy Saqi, Hacı Dadaş Qaib, Məşədi Azər (Buzovnalı), Nadir Axundov, Nəcibə Məlikova və Sidqi Ruhullanın büstləri gənc nəsil üçün də öz mədəni keçmişlərini bilmələri baxımından əhəmiyyətlidir.

Mirzə müəllim büst sahiblərinin bəziləri haqqında məlumat verir. Bildirir ki, Haşım bəy Saqi qəzəlxan olub. Onun "Divan"ı akademik Rafael Hüseynov tərəfindən nəfis tərtibatla çap edilib. H.Saqi həm də Buzovnanın daha bir yetirməsi, görkəmli teatr və kino aktrisası, Xalq artisti Nəcibə Məlikovanın atasıdır. Saqinin Mirzə Cəlil və o dövrün ziyalıları ilə yaxın əlaqələri olub. Məşədi Azər (İmaməliyev – Azər Buzovnalı) böyük qəzəlxan Əliağa Vahidin ustadı hesab edilir. Onun "Divanı"ı, "Oğuznamə" poeması və digər əsərləri ədəbiyyatşünaslar tərəfindən yüksək qiymətləndirilir. Nadir Axundov istedadlı klarnet ifaçısı kimi tanınıb. Azərbaycanın və SSRİ-nin Xalq artisti Sidqi Ruhulla isə teatr və kino sənətimizdə silinməz izlər qoyan sənətkarlardandır.

Büstlər Buzovnanın bir xeyriyyəçi sakini tərəfindən sifariş olunub və məktəbin qarşısındakı "Şairlər bağı" adlı məkanda qoyulub. Mirzə müəllim Məşədi Azər Buzovnalının bu məktəbdə dərs dediyini diqqətə çatdırır. Bildirir ki, Hüseyn Cavid, Mikayıl Müşfiq və Cəfər Cabbarlı bu məktəbdə olublar. Əlavə edir ki, milli mesenat Hacı Zeynalabdin Tağıyev həm Buzovna, həm də Mərdəkandan gənclərin xaricdə oxumağa göndərilməsinə dəstək olub. Həmsöhbətimiz tanınmış buzovnalılardan Azərbaycan teatr və kino sənətinin məşhur simalarından olan Xalq artisti Nəsibə Zeynalovanın atası, teatr xadimi Cahangir Zeynalovun da adını hörmətlə çəkir, xidmətlərini yada salır.

***

Növbəti baş çəkdiyimiz məkan "Təhməzov" hamamıdır. Bələdçimiz yolboyu küçələrin və məhəllələrin adları ilə bağlı məlumat verir. Bildirir ki, bu hamamın tikilməsinin maraqlı tarixçəsi var. Kəndin imkanlı şəxslərindən birinin xanımı o vaxt el hamamına gedir və həmin gün kişilərin növbəsi olduğu üçün kor-peşman qayıdır. Buna görə də xanımın həyat yoldaşı Məmmədrza Təhməzov kənddə ikinci bir hamama ehtiyac olduğunu dərk edir və bu məqsədlə yeni bina inşa etdirir. Maraqlı memarlığa malik, 150-dən çox yaşı olan hamam uzun müddət Buzovna sakinlərinə xidmət edib.

Mirzə müəllim diqqətə çatdırır ki, Buzovna bir sıra yerli və xarici filmlərdə bəzi kadrların lentə alındığı məkanlardandır. Azərbaycan kinosunun incilərindən olan "Uzaq sahillərdə" və "Fətəli xan" filmlərinin bəzi kadrları burada lentə alınıb. Gürcü rejissorların çəkdiyi "Məmlük" filmində Nadir Axundov "Bayatı-kürd" muğamını burada ifa edib, Bolqarıstan və Rusiya kinematoqrafçılarının çəkdikləri "Mustafa Şokay" filmi də Buzovnada kinolentə köçürülüb. Bundan əlavə, "Yeddi oğul istərəm" filminin bəzi kadrları, son illərin ekran işlərindən olan "Axırıncı dayanacaq" filmi və s. bu kənddə tarixin kino yaddaşına yazılıb.

Daha sonra yolumuzu "Cabayev" adlanan hamam binasından salırıq. Tikilinin içərisinə girməyə imkan olmadığından kiçik pəncərədən içəri boylanırıq. Lakin fotoqrafımız, çətinliklə olsa da, içəri keçib hamamın daxilini kadra ala bilir...

***

Bura isə Buzovnanın ən hündür yeri, "Hun qəbiristanlığı" adlı ərazidir. Mənbələrdə e.ə. III əsrə aid olduğu qeyd edilən qədim qəbiristanlığın ərazisində Xəlifə Əli və Məhəmməd Mömin türbəsi də yerləşir. Daşlar özü bir tarixdir. Mirzə müəllim türbənin üzərindəki yazı və işarələrə baxaraq unudulmaz Vaqif Mustafazadənin "Tikmədim özüm qalam, tikdim ki, izim qala" musiqi kompozisiyasından imitasiyalar da edir. Bərpaya ehtiyacı olan bu abidə də qədim tariximizin bir parçasıdır. Bir neçə il əvvəl türbənin üzərində günbəz inşa olunub. Lakin qeyri-peşəkar şəkildə ağ daşdan hörülən günbəzin qədim abidənin memarlığına uyğun gəlmədiyi ilk baxışdan hiss olunur. Onu da qeyd edim ki, bu haqda Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinə də məlumat verdik.

Ərazidəki qəbirlərin və abidələrin üzərindəki yazılar mərhum epiqrafçı alim, AMEA-nın müxbir üzvü Məşədixanım Nemətova tərəfindən oxunub, araşdırılıb. Türbədəki sinə daşlarının quruluşu sufi mədəniyyətini xatırladır. Qəbir daşlarının üzərində təsbeh, möhür, at rəsmlərinə rast gəlmək olur. Xəlifə Əli və Məhəmməd Mömin türbəsinin içərisində Seyid Qasım adlı şəxsin məzarı yerləşir. Abidənin divarları iqlim şəraiti ilə əlaqədar aşınmaya məruz qalıb.

İndi isə qəsəbənin "Xan bağı" deyilən ərazisindəyik. Buranın da maraqlı tarixi var. Deyilənə görə, bu ərazi Abbasqulu ağa Bakıxanovun babasının bağ sahəsi imiş. Hazırda qəsəbə sakinlərinin yaşadığı ərazidə hasarların bəzi yerləri qədim tarixdən xəbər verir. Mirzə müəllim zarafatla deyir ki, bu evin sakinləri də bir az imkanlı olsalar, gördüyümüz daşları söküb tarixi "yeniləyəcəklər". Bu yerdə onu da öyrəndik ki, Seyid Əzim Şirvaninin oğlu Cəfər də Buzovnada dəfn olunub.

Ən son dayanacağımız Mir Mövsüm ağanın qardaşı nəvəsi Mir Mövsüm Ziya ağa ziyarətgahı oldu. Bu abidə dövrün tələblərinə uyğun inşa edilib. Bələdçimiz deyir ki, abidənin daşları İranın İsfahan şəhərindən gətirilib...

Bizə gözəl bələdçilik edən, qəsəbənin mədəni mirası ilə bağlı maraqlı məlumat verən Mirzə Ağabəyli ilə sağollaşıb ayrılırıq.

***

Sonda isə Buzovnanın tanınmış sakinlərindən bir neçəsini xatırlatmaq istəyirəm. Görkəmli iqtisadçı alim, akademik Ziyad Səmədzadə, Xalq artisti, tarzən Firuz Əliyev, Əməkdar artist Mirnazim Əsədullayev, xanəndə-pedaqoq, Əməkdar müəllim Nəriman Əliyev, Əməkdar rəssam Rafael Muradov, ilahiyyatçı alim Hacı Soltan Əlizadə, şair-qəzəlxan, klassik ədəbiyyatın bilicilərindən Arif Buzovnalı və başqaları öz fəaliyyət sahələrində seçilən insanlardır.

Bir günümüzü Buzovnaya həsr etdik. Vaxt tapan kimi sizi Bakının başqa maraqlı məkanları ilə tanış etmək arzusu ilə.

**Lalə AZƏRİ**
**fotolar: Həbib HÜSEYNOV**

## Nizami sözündən incilər

# Hər bəndin açarı səbrdir, inan...

Nizami Gəncəvinin "Xəmsə"si dünya poetik-fəlsəfi fikrinin zirvəsində dayanır. "Xəmsə"yə daxil olan beş poema-məsnəvidə bütün zamanların ən humanist, ümumbəşəri idealları parlaq bədii əksini tapıb. "Nizami Gəncəvi İli" qüdrətli söz ustadının misilsiz xəzinə olan ədəbi irsinin təbliği, eyni zamanda tədqiq edilməsi və öyrənilməsi üçün yeni zəmindir.

"Nizami sözündən incilər"də dahi şairin möhtəşəm beşliyindən növbəti seçmələri təqdim edirik.

*Deyilməyən sözü demə ağyara,*
*Deyil tək ağyara, hətta dostlara.*
*Sirrini bilməsin evdə divarlar,*
*Divar dalında da çünki qulaq var.*
*Gizləyə bilməsən sirri qohumdan,*
*Onu qəlbinə də buraxma bir an.*

**("Xosrov və Şirin")**



*Dənizə min çay axar, o yenə sakit durar,*
*Arxa bir sel gələndə çalxanıb ləngər vurar.*

**("Sirlər xəzinəsi")**

*Baş vaxtından əvvəl ucalsa əgər,*
*Özü təpəsinə şillə endirər.*

**("Leyli və Məcnun")**

*Ürəkdə arzun var, çatarsan əlbət.*
*Qoyma ki, qarışsın işə xəyanət.*

**("Yeddi gözəl")**

*Örtülü adamdan sirrini saxla,*
*Onlardan məsləhət eşitmə əsla.*

**("İsgəndərnamə" – "İqbalnamə")**

*Hər bəndin açarı səbrdir, inan!*
*Səbirli kimsələr olmaz peşiman.*

**("İsgəndərnamə" – "Şərəfnamə")**

# Sənətə bağlı adam

Yaradıcılıq eşqi daxili təlatüm, narahatlıq, həyata həddən artıq diqqət və sevgidən yaranır. Yalnız belə olan halda insan sənətə bağlana, sənətlə yaşaya, ömrünü bütünlüklə sənətə həsr edə bilər. Xalq artisti, kinorejissor, aktyor Ramiz Əzizbəyli (1948–2021) də taleyinə yazılan 73 illik ömür payının 60 ilini sənətə həsr etdi. Sənətkarı ilk dəfə onsuz qeyd olunacaq doğum günü (20 iyul) ərəfəsində yad edirik...



"Bəyin oğurlanması" filmindən kadr



"Bəxt üzüyü" filminin çəkilişi

### Kinoda keçən ömür

Kiçik yaşlarından taleyi sənətə bağlı insanın kino ilə ilk tanışlığı 9 yaşından başlayıb. Azərbaycan Televiziya və Radiosunun uşaq verilişlərində çıxış edən bacarıqlı yeniyetmə, görkəmli kinorejissor Əjdər İbrahimovun quruluş verdiyi "Bir məhəllədən iki nəfər" (1957) filmində debüt rolunu (ayaqyalın uşaq) oynayıb. Peşəkar kollektivlə, tanınmış sənətkarlarla birlikdə çalışması onun hafizəsində silinməz iz buraxır, həyatını sənətə həsr etməsinə səbəb olur. Kinoya böyük sevgi duyan istedad sahibi tədricən "Azərbaycanfilm"də istehsal olunan ekran əsərlərində kiçikplanlı, epizodik rollarda yaradıcılığını təsdiqləyir, geniş planlı, aparıcı rollara dəvət alır. İstedadı, zəhmətsevərliyi sayəsində çoxsaylı tamaşaçıların sevimlisinə çevrilir, insanpərvərliyinə görə isə həmkarlarının rəğbətini qazanır.

Yaradıcılıq filmoqrafiyasına 100-dən artıq film daxil olan sənətkar kino fəaliyyətində çəkildiyi, səsləndirdiyi, rejissor kimi quruluş verdiyi və mahnılar ifa etdiyi filmlərə fərdi dəst-xətti ilə baxımlılıq gətirib, uğur qazandırıb. 50-yə yaxın "Mozalan" kinosüjetində xarakterik rollar yaradan aktyor 20-dən artıq filmdə müxtəlif rolları, həmçinin animasiya filmlərində personajları ("Basat və Təpəgöz"də Aruz, "Talada ev"də Siçan) məharətlə səsləndirib. 30 filmdə irili-xırdalı rol oynayıb. Rejissor kimi 4 ekran əsərinə ("Pirverdinin xoruzu" qısametrajlı bədii, "Bəxt üzüyü" komediya, "Yalan" dram-müharibə, "Qovğalı kəndinin gecələri" qısametrajlı bədii televiziya filmləri) quruluş verib.



"Qəm pəncərəsi" filmindən kadr



"Atları yəhərləyin" filmindən kadr

Məlahətli, məxməri səs diapazonuna malik, güclü musiqi duyumu olan aktyor bir neçə filmin ("Cin mikrorayonda", "Bəxt üzüyü" və s.) mahnılarını obrazlı və baməzə üslubda səsləndirib.

### Sənətkar haqqında düşüncələr

Tanınmış kino xadimlərinin maraqlı xatirələri Ramiz Əzizbəylinin yaradıcılıq xüsusiyyətlərini daha geniş şəkildə səciyyələndirir.

**Əməkdar incəsənət xadimi, kinorejissor Cəmil Fərəcov:** "Ramizlə 1970-ci ildə kinostudiyaya gələndə tanış olmuşduq və dostlaşmışdıq. Rejissor kimi onu ilk dəfə "Arvadım mənim, uşaqlarım mənim" kinoalmanaxına daxil olan eyniadlı novellada Səfər roluna çəkmişəm. O, təkcə çəkilmirdi, həm də rolla bağlı əlavələrini edirdi. Rola aid replika deyəndə həmin fikrin 3-4 variantını deyirdi. Tərəf-müqabili Kamil Məhərrəmova da öz tövsiyələrini verirdi. Onun özünəməxsus ironik ifası vardı və mən bunu başqa aktyorlarda görmədim. Onunla işləmək çox rahat idi. İşgüzar, işıqlı, pozitiv, aktiv insan idi. Dublyajda da çox çalışırdı. Epizod rollara daha çox dəvət alırdı və çəkilirdi. Hər kəslə mehriban münasibəti vardı. Buna görə də kinostudiyada hamı onu sevirdi.

Rejissor kimi ikinci filmi olan "Bəxt üzüyü" (1991) tamaşaçılar tərəfindən sevgi ilə qarşılandı. Film o dövr üçün ən çox gəlir gətirən kassa filmi oldu. Maraqlıdır ki, hətta rusdilli izləyicilər də bu filmə maraqla baxır və sevir. O, heç bir filmə çəkilməsəydi, təkcə "Bəxt üzüyü" filmini çəksəydi belə, yenə də adı Azərbaycan kino tarixinə klassik rejissor kimi düşəcəkdi. Çünki "Bəxt üzüyü" filmi əsl milli filmdir. Şair, dramaturq Vaqif Səmədoğlunun ssenarisi və Ramiz Əzizbəylinin fərdi yaradıcılıq üslubu bu klassik milli filmin ərsəyə gəlməsinə səbəb oldu. Ramiz Əzizbəyli insanların qəlbində iz qoyub getdi".

**Əməkdar incəsənət xadimi, kinorejissor Ziyafət Abbasov:** "Ramizlə ailəvi dost, sirdaş idik. Çox istedadlı insan idi. Həmişə onun rolları ilə fəxr etmişəm, əksəriyyətini də bəyənmişəm. Xeyirxah xasiyyəti vardı. Xalq onu çox sevirdi".

Əməkdar incəsənət xadimi, kinorejissor Elxan Cəfərov: "Ramiz Əzizbəylini uşaqlıqdan tanıyıram. Amma çəkiliş meydançasında ilk görüşümüz "Şir evdən getdi" filmində olub. O, həmişə peşəkar insan kimi hafizəmdə iz salıb. 2010-cu ildə "Əlavə təsir" filmini çəkəndə ona psixoloq rolunu həvalə etdim. Obrazın öhdəsindən bacarıqla gəldi. Filmin daxili baxışında zalda oturmuşdu. Digər həmkarlarımız kimi bizə dəstək olmaq istəyirdi. Onun özünəməxsusluğu onda idi ki, baxış zamanı sükutu daim pozur, elə hey "sağ ol, Elxan, sağ ol, Nadir, sağ ol, Əli" deyərək bizə dəstək olduğunu sübut edirdi. Çox zarafatcıl, həssas, məsuliyyətli və canı-qanı ilə sənətə bağlı insan idi. Azərbaycan kinosunu və "Azərbaycanfilm" kinostudiyasını mənə doğma edən insanlar sırasındadır. Ümidim vardı ki, xəstəliyinin sonunda yenə də onun gülər üzünü görəcəyəm. Əfsuslar olsun ki, bu olmadı. Onu həmişə böyük sevgi hissi ilə xatırlayacağam".

**Əməkdar mədəniyyət işçisi, kinorejissor, aktyor Elman Dadaşoğlu:** "Ramiz Əzizbəyli ilə "Bəxt üzüyü" filmində birlikdə (ikinci rejissor kimi) işləyəndə onun istedadının bir daha şahidi oldum. Əvvəla, onu deyim ki, filmin sevilməsinin çox səbəbi var. Vaqif Səmədoğlunun pyesi əsasında çəkilən filmin uğurlu olması gözlənilən idi. İki aya yaxın ssenari üzərində iş davam etdi. Ortaya bitkin bir komediya çıxdı. Filmdə peşəkar aktyorların çəkilməsi ilə yanaşı, Ramizin musiqi, rəssam işinə yaradıcı münasibət bəsləməsi də filmin təsir gücünü artırdı.

Bildiyimiz kimi, pyesdə hadisələr bir məkanda, bağ evində baş verir. Ramizin özünəməxsus üslub və forma zənginliyi, duzlu-məzəli söhbətləri filmi sıxıcı olmaqdan uzaqlaşdırır. O, bütün vasitələrdən istifadə edərək tamaşaçını darıxdırıcılıqdan qutarır. Bu pyes filmdən əvvəl Sumqayıt Dram Teatrında səhnəyə qoyulmuşdu. Baş rolları (Söylü, Moşu Göyəzənli) da xalq artistləri Afaq Bəşirqızı və Valeh Kərimov oynayırdı. Ramiz peşəkarlarla çox işləmirdi. Obrazların kimliyi haqqında onları məlumatlandırır, aktyorlara sərbəstlik verir, istədiyini ala bilməyəndə isə göstərirdi. Aktyor peşəkarlığı bu məqamda ona çox kömək edirdi. Epizodu elə əlvan çalarla göstərirdi ki, səhnəni hazır görürdün. İmprovizəni çox sevirdi. Aktyor bunu edəndə imtina etmirdi, bir şərtlə ki, süjet xəttindən kənara çıxmasın, bayağılığa yol verməsin, rolun daxili qatlarını açmağa köməklik etsin.

Çəkiliş meydançasında onu səsini qaldıran, əsəbiləşən görmədim. Filmdə dənizkənarı kafedə dostların söhbəti səhnəsi ssenaridə yox idi. Barmağını stola döyəcləyərək söhbət etmək şakəri olan obrazı ifa edən aktyor həvəskar idi. Ramiz onunla məşq edir, istədiyini ala bilmirdi. Həmin kadr 10 dubldan sonra çəkildi.

Filmdə maraqlı kadrlardan biri də Söylünün Moşunun dənizdə batdığını eşidib qaçmasıdır. Havalanmış kimi qaçan Söylü yolda gedən iki nəfəri itələyir. Biri yıxılır, başına daş düşür, digərinin əlindəki içki şüşəsi sınır. Söylünün qaçışının effektliyini artırmaq üçün Ramiz bu mizanı fikirləşmişdi.

Çox zarafatcıl insan idi, amma zarafatının yerini bilirdi. Özünəməxsus lətifə danışmaq bacarığına görə ssenaridə olmayan zarafatları əlavə olaraq çəkə bilirdi. "Bəxt üzüyü"ndə milis işçisinin (Xalq artisti Arif Quliyev) qonşuları milis bölməsinə aparanda faşist paltarında görünmə səhnəsi də filmə əlavəsi idi.

Gözəl musiqi duyumu, şirin məlahətli səsi vardı. Çox məşğul olsaydı, bəlkə də məşhur müğənni olardı. Bəstəkarla xüsusi həssaslıqla işləyirdi. Mahnıların yazılışının əksəriyyətində yaxından iştirak edirdi. Onun rəssamlıq qabiliyyəti də vardı. Kompozisiyadan tutmuş kadrlardakı xırda detalların düzülüşünə qədər hər bir tərtibata rəssam gözü ilə baxırdı. Çəkiliş meydançası onun üçün hər şey idi. Yorulmadan çalışırdı. Bəzən fəhlənin görməli olduğu işi də özü görürdü.

"Bəxt üzüyü" filminin finalına yaxın qonşular arasında olan narazılıqdan sonra küsülü münasibət yaranır, daş hasar tikilir. Çəkilişdən bir gün əvvəl hasar tikilməli idi. Həmin gün də filmin direktorunun (Akif Musayev) səhhətində problem yaranmışdı. Usta və fəhlələri o gətirməli idi. Günortaya qədər gözlədik. Məlum oldu ki, fəhlələr hansısa səbəbdən gəlməyəcək. Çəkilişi başqa günə salmaq qərarı verildi. Ramiz bildirdi ki, hasarı özümüz tikəcəyik. İşıqçı Daşdəmir hörgü işini bacarırdı. Ramiz, mən və Daşdəmir həmin bağ evinə yollandıq. Ramiz sementlə qumdan palçıq hazırladı, mən də daşları daşıdım. Daşdəmir isə divarı hördü. Axşama yaxın hasarı hörüb qurtardıq. Bir qədər sonra filmin direktoru gələndə Ramiz ona zarafatla "yəqin külək sənə bitirdiyimizi çatdırıb" deyə gülümsədi. O, əmin idi ki, bu film uğur qazanacaq. Çünki çəkiliş vaxtı bəzi səhnələrə özümüz də gülürdük. Ramiz adi lətifəni elə gülməli danışırdı ki, ona gülməmək mümkün deyildi. İrili-xırdalı epizodları zərgər dəqiqliyi ilə, komik ruhla, baməzə əhvalla işləyirdi. Buna görə də tamaşaçıların sevdiyi bir film ərsəyə gətirdi.

Onun şairliyi də vardı. Qəzəllər, sərbəst janrda, heca vəzində şeirlər, hətta həcvlər yazırdı. Kiçik yaşlarından televiziya və radio proqramlarında çıxış etdiyindən, sənətlə məşğul olduğundan film dublyajında xüsusi yeri vardı. Elə vaxt olurdu ki, bir filmdə iki-üç rolu səsləndirirdi. Səsini məharətlə dəyişə bilirdi. Geniş anlamda çox istedadlı, zəhmətkeş bir insan idi. Təəssüf edirəm ki, rejissor kimi az film çəkdi...".

**Şəhla ƏMİRLİ**
**kinoşünas**

## Xatirə təqvimi — 17–21 iyul

### Azərbaycan

**17 iyul 1487** – Azərbaycan Səfəvilər dövlətinin banisi, görkəmli sərkərdə, şair Şah İsmayıl Xətai (1487 – 23.5.1524) Ərdəbildə doğulub. 1501-ci ildə Təbrizi paytaxt elan etməklə Səfəvilər dövlətini qurub. "Xətai" təxəllüsü ilə şeirlər yazıb, "Dəhnamə" poemasının müəllifidir.

**17 iyul 1898** – Ədəbiyyatşünas, publisist Əbdülvahab Hacı Zeynalabdin oğlu Məmmədzadə (Yurdsevər; 1898-1976) Bakıda doğulub. 1923-cü ildə həbs edilib, 10 il həbs və sürgündən sonra mühacirətə gedib. 60-70-ci illərdə İstanbulda Azərbaycan Milli Mərkəzinə rəhbərlik edib, Ankarada dəfn olunub.

**17 iyul 1953** – Xalq artisti Telman Abbasqulu oğlu Adıgözəlov (1953 – 15.4.2010) Balakən rayonunda doğulub. Akademik Milli Dram Teatrında, televiziya tamaşalarında maraqlı obrazlar yaradıb. Filmlərdə ("Anlamaq istəyirəm", "Günaydın, mələyim!" və s.) çəkilib.

**17 iyul 2001** – Görkəmli tarixçi alim, şərqşünas, akademik Sara Balabəy qızı Aşurbəyli (27.1.1906 – 2001) vəfat edib.

**18 iyul 1864** – Məşhur xanəndə Keçəçi oğlu Məhəmməd (Məhəmməd Məşədi Xəlil oğlu; 1864 – 20.11.1940) Şuşada doğulub. Xanəndənin ifasında muğam və xalq mahnıları Varşava və Kiyevdə qrammofon vallarına yazılıb. 1926-cı ildən Üzeyir Hacıbəylinin təşəbbüsü ilə Azərbaycan Dövlət Konservatoriyasında müəllimlik edib.

**18 iyul 1903** – Əməkdar incəsənət xadimi Sergey Arsenyeviç Mayorov (1903-1973) anadan olub. Dövlət Rus Dram Teatrında (1926-1937) quruluşçu rejissor və baş rejissor işləyib.

**18 iyul 1927** – Tanınmış heykəltəraş, Xalq rəssamı Tokay Həbib oğlu Məmmədov (1927 – 2.5.2018) Bakıda anadan olub. Üzeyir Hacıbəylinin, Nəsiminin (İ.Zeynalovla birlikdə), Füzulinin (Ö.Eldarovla birlikdə), Koroğlunun Bakıda ucaldılan heykəllərinin müəllifidir. Dövlət Rəssamlıq Akademiyasının professoru kimi gənc heykəltəraşların yetişməsinə töhfələr verib.

**18 iyul 1932** – Ədəbiyyatşünas, Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü Azadə Cəfər qızı Rüstəmova (1932-2006) Bakıda doğulub. Kitabları: "Azərbaycan epik şeirinin inkişaf yolları", "Məhəmməd Füzuli", "Nizaminin poeziya sələfləri" və s.

**18 iyul 1936** – Azərbaycan Xalq Maarif Komissarlığının əmrinə əsasən Bakı Uşaq Teatrı (1928-ci il 20 sentyabrda yaradılmışdı) Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı adlandırılıb. Teatra rus-sovet yazıçısı Maksim Qorkinin adı verilib.

**18 iyul 1940** – Əməkdar artist, rəqqas Qorxmaz Ağababaoğlu Qurbanov (1940 – 20.5.2021) anadan olub. Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının baletmeysteri, bədii rəhbəri vəzifələrində çalışıb.

**19 iyul 1915** – Xalq artisti, opera müğənnisi (bariton) Ağababa Balağa oğlu Bünyadzadə (1915 – 17.12.1974) Bakının Kürdəxanı kəndində doğulub. 1938-ci ildən Akademik Opera və Balet Teatrının solisti olub.

**20 iyul 1903** – Əməkdar incəsənət xadimi Baxşi Həsən oğlu Qələndərli (1903 – 14.9.1985) Xankəndidə doğulub. C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrında baş rejissor, C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında rejissor işləyib.

**20 iyul 1933** – Əməkdar rəssam Məmmədəli Namazəli oğlu İsmayılov (1933 – 21.8.2010) Naxçıvan şəhərində anadan olub. Naxçıvan Dövlət Musiqili Dram Teatrında quruluşçu rəssam işləyib.

**20 iyul 1936** – Tarixçi, arxeoloq, AMEA-nın müxbir üzvü Vəli Hüseyn oğlu Əliyev (1936–2020) Şəki rayonunun Daşbulaq kəndində anadan olub.

**20 iyul 1946** – Əməkdar mədəniyyət işçisi, rejissor Rafiq Ağahüseyn oğlu Dadaşov (1946-2017) Bakıda anadan olub. Bir sıra filmlərin ("Yol əhvalatı", "Qətl günü" və s.) ikinci rejissoru olub, sənədli filmlər çəkib.

**20 iyul 1948** – Xalq artisti, aktyor, rejissor Ramiz Hacı Ağa oğlu Əzizbəyli (1948 – 9.6.2021) Bakıda anadan olub. Filmlərdə, televiziya tamaşalarında maraqlı rollar oynayıb, "Pirverdinin xoruzu", "Bəxt üzüyü", "Yalan" bədii filmlərinə quruluş verib. Bir çox filmlərin səsləndirilməsində iştirak edib.

**21 iyul 1950** – Xalq artisti Məmmədbağır Bağırzadə (1950 – 30.10.2005) Bakının Nardaran kəndində doğulub. Xalq və bəstəkar mahnılarının unudulmaz ifaçısı, populyar mahnıların ("Kimlərə qaldı dünya?", "Yadıma düşdü") müəllifi olub.

**21 iyul 1981** – Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi görkəmli şair, dramaturq Hüseyn Cavidin anadan olmasının 100 illiyi haqqında qərar qəbul edib. Qərarda Bakı və Naxçıvan şəhərlərində Hüseyn Cavidin xatirə muzeylərinin yaradılması, ədibin adının əbədiləşdirilməsi ilə bağlı digər tədbirlər nəzərdə tutulmuşdu.

### Dünya

**17 iyul 1846** – Rus alimi, səyyah və etnoqraf Nikolay Mikluxo-Maklay (1846-1888) anadan olub. Cənub-şərqi Asiyanın, Avstraliyanın müxtəlif xalqlarının etnoqrafiyasını tədqiq edib.

**17 iyul 1888** – İsrail yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1966) Samuel Aqnon (Samuel Josef Agnon; 1888-1970) anadan olub. "Toy talvarı", "Gecə qonağı" və s. romanların müəllifidir.

**17 iyul 1889** – Amerika yazıçısı, detektiv əsərlərin müəllifi Erl Stenli Qardner (Erle Stanley Gardner; 1889-1970) anadan olub. 100-dən artıq romanın müəllifidir.

**18 iyul 1610** – İtalyan rəssamı, Avropa realist rəngkarlığının banilərindən Mikelancelo Karavaco (Michelangelo Merisi da Caravaggio; 28.9.1573 - 1610) vəfat edib. Məşhur əsərləri: "Tövbə edən Mariya Maqdalina", "David və Qoliaf", "Müqəddəs Pyotrun əzabkeşliyi" və s.

**18 iyul 1811** – İngilis yazıçısı Vilyam Tekkerey (William Makepeace Thackeray; 1811-1863) anadan olub. "Şöhrətpərəstlik yarmarkası", "Snoblar kitabı" və s.

**19 iyul 1834** – Fransız rəssamı və heykəltəraşı Edqar Deqa (Edgar Degas – Hilaire Germain de Gas; 1834-1917) anadan olub.

**19 iyul 1893** – Rus şairi Vladimir Mayakovski (1893 - 14.4.1930) Gürcüstanın Kutaisi bölgəsinin Baqdadi kəndində doğulub. 1906-cı ildə ailəsi Moskvaya köçüb. Poemaları: "Şalvarlı duman", "150 000 000", "Vladimir İliç Lenin" və s. Satirik pyesləri: "Misteriya Buff", "Hamam" və s.

**20 iyul 1304** – İtaliya intibahının görkəmli nümayəndəsi, şair Françesko Petrarka (Francesco Petrarca; 1304-1374) anadan olub.

**20 iyul 1864** – İsveç şairi, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1931) Erik Karlfeldt (Erik Axel Karlfeldt; 1864-1931) anadan olub.

**20 iyul 1895** – Macar və amerikan rəssamı, fotoqraf və bəstəkar, konstruktivizm cərəyanının nümayəndəsi Laslo Mohoy-Nad (Laszlo Moholy-Nagy; 1895-1946) anadan olub.

**21 iyul 1893** – Alman yazıçısı Hans Fallada (əsl adı Rudolf Wilhelm Friedrich Ditzen; 1893-1947) anadan olub. Əsərləri: "Anton və Herda", "Sonra nə, balaca adam?", "Canavarlar içində canavar" və s.

**21 iyul 1899** – Amerika yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1954) Ernest Heminquey (Ernest Miller Hemingway; 1899 – 2.7.1961) anadan olub. Əsərləri: "Kişisiz qadınlar", "Əlvida, silah", "Əcəl zəngi kimin üçün çalınır" (roman), "Qoca və dəniz" (povest) və s.

**Hazırladı: Vüqar ORXAN**

№53 (1830)
16 iyul 2021
www.medeniyyet.az

# Şuşa şəhəri 2022-ci ildə "İslam Mədəniyyətinin Paytaxtı" olacaq

## Gələn il İCESCO-nun Azərbaycanda regional ofisinin açılması da nəzərdə tutulur

İslam Dünyası Elm, Təhsil və Mədəniyyət Təşkilatının (İCESCO) Rabatdakı (Mərakeş) qərargahında təşkilatın baş direktoru Salim bin Məhəmməd Əl-Malik və Azərbaycanın Mərakeşdəki səfiri Oktay Qurbanov arasında görüş keçirilib.



İCESCO-nun qərargahından bildiriblər ki, görüşdə əsas müzakirə mövzusu Azərbaycanın Şuşa şəhərinin 2022-ci ildə Asiya regionu üzrə "İslam Mədəniyyətinin Paytaxtı" elan olunması üzrə təşkilatın irəli sürdüyü təşəbbüs olub.

Salim bin Məhəmməd Əl-Malik qeyd edib ki, rəhbərlik etdiyi təşkilat bu mühüm təşəbbüsün yüksək səviyyədə həyata keçirilməsi üçün lazım olan bütün tədbirləri görəcək. O əlavə edib ki, Şuşanın "İslam Mədəniyyətinin Paytaxtı" tədbirləri çərçivəsində İCESCO-nun Azərbaycanda regional ofisinin açılması da nəzərdə tutulur. Eyni zamanda işğaldan azad olunmuş ərazilərdə İslam irsi abidələrinin müəyyən edilməsi və onların İslam Dünyası İrsi Siyahısına salınması istiqamətində texniki ekspert heyətinin də səfəri həyata keçiriləcək. Heyətin üzvləri Azərbaycanın aidiyyəti qurumları ilə birlikdə tarixi abidələrin bərpası planının layihəsi üzərində işləyəcəklər.

Görüşdə Azərbaycanla İCESCO arasında elm, təhsil və mədəniyyət sahələrində həyata keçirilən digər layihələr ətrafında da fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, İCESCO-nun "İslam Mədəniyyətinin Paytaxtı" layihəsi hər il üç region – Asiya, Afrika və Ərəb regionu üzrə elan edilir. Azərbaycandan Bakı və Naxçıvan şəhərləri müvafiq olaraq 2009 və 2018-ci illərdə Asiya regionu üzrə bu missiyanı daşıyıb.

# Ukraynalı jurnalist: "Şuşa, həqiqətən də, Qarabağın incisidir"

Şuşa Qarabağın əsl incisidir və Azərbaycanın onun bərpasına göstərdiyi və hələ göstəriləcək bütün səylərə layiqdir. Şəhərin yenidən qurulacağı və yerli sakinlərin oraya qayıdacağı zaman bu şəhərə yenə gəlməyi çox istərdim. İnanıram ki, bu, tezliklə baş verəcək.

Bu günlərdə Şuşada olmuş Ukraynanın "Kanal 5" telekanalının müxbiri Yevgeniya Kitayeva təəssüratını bölüşərkən belə deyib.

O qeyd edib ki, şəhərin bərpası üçün Azərbaycanın, əlbəttə ki, iddialı planları var: "Biz hələ hərbi əməliyyatların ilk günlərində – sentyabr ayının sonunda işgüzar səfərə gələndə, mən insanlardan "Biz Şuşa şəhərini qaytarmalıyıq" cümləsini çox eşidirdim. O zaman mən bu şəhərin azərbaycanlılar üçün hansı məna kəsb etdiyini hələ tam anlamırdım, amma onsuz da jurnalist marağım mənə rahatlıq vermirdi. Şuşa haqqında çox oxumağa başladım. 44 günlük müharibə bitdikdə və şəhərin artıq Azərbaycanın nəzarətində olduğu məlum olduqda, oraya getmək və hər şeyi öz gözlərimlə görməyi çox istəyirdim. Fevral ayında Prezident İlham Əliyev mətbuat nümayəndələri ilə görüşəndə mən özümü saxlaya bilmədim və ondan jurnalistlər üçün Şuşaya səfərlə əlaqədar soruşdum. O, söz verdi. İyul ayının əvvəlində mən orda oldum. Dağıntılara baxmayaraq, şəhər çox gözəldir", – deyə Yevgeniya Kitayeva bildirib.

Ukraynalı jurnalist Şuşada çox sayda memarlıq və tarixi abidənin olduğunu vurğulayıb: "Biz şəhərdə hər şeyi mümkün qədər tez bərpa etməyə çalışan hərbçiləri və inşaatçıları gördük.



Ancaq, həqiqətən, orada çox iş var. 28 illik işğaldan sonra binaların əksəriyyəti dağıdılıb. Biz Şuşada olduğumuz zaman mən düşünürdüm ki, bir çox Şuşa sakini buraya gəlməyi xəyal edir, mən isə artıq bu küçələr boyu gəzirəm".

# Qələbəyə görə milli qürur hissi

## Macarıstan nəşri Azərbaycanın Qarabağ Zəfərinin təəssüratından bəhs edir

Macarıstanın "Madyar Nemzet" qəzetinin internet versiyasında bu yaxınlarda reportyorlar qrupunun tərkibində Azərbaycanda səfərdə olmuş jurnalist David Laslonun məqaləsi dərc edilib.

Müəllif ötən ilin payızında Azərbaycanın 44 gün ərzində Qarabağda geniş ərazilərini erməni işğalından azad etməsini xatırladır. Qeyd edir ki, müharibə başa çatandan yarım il sonra hərbi əməliyyatların ab-havası bir az səngiyib, qəhrəmancasına həlak olan döyüşçülərin xatirələri və heyrət doğuran hərbi Qələbəyə görə milli qürur hissləri ilə əvəz olunub.

"Azərbaycanda, xüsusən kənd yerlərində şəhidlərin çoxlu portretləri asılıb. Ötən ilin payızında Qarabağ uğrunda gedən 44 günlük müharibədə həlak olan qəhrəmanlara həsr edilmiş lövhə və posterləri yolun kənarı boyunca, yaşayış məntəqələrinə girişdə, mağazaların və evlərin pəncərələrində görmək mümkündür" – macar jurnalist yazır.

Müəllif Bərdə rayonuna və Azərbaycanda əhalinin sayına görə ikinci böyük şəhər olan Gəncəyə müharibənin vurduğu yaralardan da bəhs edir. Qeyd edir ki, Gəncə cəbhə xəttinin 80 kilometrliyində yerləşsə də, erməni raketlərinin hücumuna məruz qalıb. Raket atılması nəticəsində əmələ gələn çalaların yan-dövrəsinə düzülmüş oyuncaqlar və güllər həlak olanları xatırladır. Xarabalıqlar içində günəbaxanlar boy atıb və buradan keçənlər bu "memorial"a öyrəşməyə başlayıblar.

"Bu Qələbə Azərbaycana baha başa gəldi" deyən David Laslo "Buna dəyərmi" sualını verdikdə sakinlər bir ağızdan "Biz xoşbəxtik!" cavabını veriblər.

Macar jurnalist Bakıda, "bir qədər qeyri-adi yerdə, hündür binaların kölgəsində, sahilboyu ilə yanaşı" yerləşən Hərbi qənimətlər parkından da bəhs edir. Bildirir ki, park bu isti günlərdə də şəhərlilərin diqqətini cəlb edir, ziyarətçilər üçün əsl ailə bayramına çevrilir. Turistlər, uşaqlar və məktəblilər buradakı nə vaxtsa ölümsaçan texnikanın fonunda böyük məmnuniyyətlə şəkil çəkdirirlər.

# Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin BMT Cenevrə Ofisi ilə əməkdaşlığı

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin baş katibi Rövşən Muradov Birləşmiş Millətlər Təşkilatının (BMT) Cenevrə Ofisinin baş direktoru xanım Tatyana Valovaya ilə görüşüb.



Görüşdə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin bir sıra konfranslarına verdiyi dəstəyə və iştirakına görə Mərkəzin həmsədrləri adından xanım Tatyana Valovayaya təşəkkür ifadə olunub.

Rövşən Muradov Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin son təşəbbüsləri, xüsusən də Azərbaycan Respublikası Prezidentinin iştirakı ilə keçirilmiş "Cənubi Qafqaz: Regional inkişaf və əməkdaşlıq perspektivləri" adlı videoformatda müzakirələr haqqında Tatyana Valovaya məlumat verib, yeni nəşr olunmuş hesabatı təqdim edib.

Baş katib Rövşən Muradov BMT Cenevrə Ofisinin rəhbərinə 2021-ci ildə keçirilməsi nəzərdə tutulan VIII Qlobal Bakı Forumuna xüsusi dəvətnaməni təqdim edərək tədbirə hazırlıq və müzakirə mövzuları ilə bağlı məlumat verib.

Daha bir görüş baş direktorun ofis rəhbəri David Çikvaidze ilə keçirilib. Görüşdə BMT-nin Cenevrə Ofisinin Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşəbbüslərinə cəlb olunması ilə bağlı müzakirələr aparılıb.

# Türk respublikalarının müstəqilliyinin 30 illiyi şərəfinə

## TÜRKSOY kuboku uğrunda at yarışı

İyulun 13-də Ankarada Azərbaycan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Türkmənistanın dövlət müstəqilliyinin otuzuncu ildönümü münasibətilə TÜRKSOY kuboku uğrunda at yarışı keçirilib.



Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY və Türkiyə Jokey Klubu tərəfindən təşkil olunan yarışı rəsmi şəxslər, o cümlədən səfirlər, şəhər sakinləri izləyiblər.

TÜRKSOY-un təşəbbüsü ilə Ankara İppodromunda düzənlənən ənənəvi cıdırda yeddi ingilis cins atı iştirak edib.

1400 metr məsafəyə at yarışının birincisi 2020-ci ildə də TÜRKSOY kubokunu Cəlal Ayazın sahibi olduğu və jokey Halis Karataşın çapdığı "Mala Moja" adlı ingilis cins madyanı olub.

# Turizmdə xidmət keyfiyyətinin yüksəldilməsi üçün

Azərbaycan Turizm Bürosunun nəzdindəki Turizm Təlim və Sertifikasiya Mərkəzinin təlimçilərinə təşəkkürnamələr təqdim olunub. Dövlət Turizm Agentliyindən bildirilib ki, təlimlər komanda işi, yerli qastronomiyanın əsasları, turizm bələdçiləri üçün aktyorluq və təqdimat bacarıqları, rəqəmsal marketinq, onlayn satış platformalarından səmərəli istifadə, ünsiyyət bacarıqları, mətbəx təhlükəsizliyi, hotellər üçün sosial media, satış və marketinqin əsasları, gəlirin idarə edilməsi, emosional zəka, liderlik bacarıqları və digər mövzuları əhatə edib.

Turizm Təlim və Sertifikasiya Mərkəzinin məqsədi xidmət keyfiyyətinin yüksəldilməsi üçün ixtisaslaşmış kadrlar hazırlamaq, sənaye nümayəndələrini təlimə cəlb etməklə ölkədə turizm haqqında məlumatlılığı artırmaq, turizm sektorunda məşğulluğa töhfə və turizmin uzunmüddətli inkişafını təmin etməkdir.

Mərkəz iştirakçılara kurslarını bitirdikdən sonra təlimdə iştirak və ya praktiki bacarıqların inkişafı ilə bağlı sertifikatlar təqdim edir, eləcə də onların əmək bazarında rəqabətə uyğunlaşmasına imkan yaradır. Mərkəz tərəfindən indiyədək 444 iştirakçıya 28 təlim keçirilib və onlardan 330 nəfər sertifikatla təltif olunub.

Layihənin tərəfdaşları Peşə Təhsili üzrə Dövlət Agentliyi, Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ), Azərbaycan Hotel Assosiasiyası (AHA), Amerika Hotel və Yerləşdirmə üzrə Təhsil İnstitutu (AHLEİ), "JW Marriot Absheron" və "Abşeron Hotellər Qrupu"dur.

# Dalğa dalğa dalınca...

Koronavirusun "Delta" ştamı dünyada yeni yoluxma artımının əsas səbəbidir, biz üçüncü yoluxma dalğasının başlanğıcındayıq.



Dünya Səhiyyə Təşkilatının (DST) Baş direktoru Tedros Adhanom Qebreyesus qurumun COVİD-19 infeksiyası üzrə Fövqəladə Komitəsinin iclasında belə deyib.

"Delta" ştamı hazırkı yoluxma artımının əsas hərəkətverici elementlərindən biridir, o, artan sosial təsirlərdən və insan hərəkətlərindən, həmçinin təsdiqlənmiş sosial və ictimai sağlamlıq tədbirlərinin uyğunsuz istifadəsindən qaynaqlanır", – deyə o bildirib.

DST rəhbərinin sözlərinə görə, Avropa və Şimali Amerika əhalisi arasında vaksinasiya səviyyəsinin artması bəhrə verməyə başlayıb, bu regionlarda virusa yoluxma və ölüm hallarında azalma müşahidə edilib. Lakin vəziyyət yenidən dəyişir və dünya üçüncü yoluxma dalğasının başlanğıcındadır: "Artıq ardıcıl olaraq dördüncü həftədir ki, dünyada COVİD-19 infeksiyasına yoluxma halları artmaqda davam edir. On həftəlik enişdən sonra ölüm səviyyəsi də artmağa başlayıb".

Dünya Səhiyyə Təşkilatının Fövqəladə Komitəsi üç aydan bir toplanaraq koronavirusun yayılma təhlükəsini qiymətləndirir. Komitənin qərarına əsasən, hazırda COVİD-19 ictimai səhiyyə sahəsində beynəlxalq əhəmiyyətə malik fövqəladə vəziyyət səviyyəsindədir.

Komitə iclasının nəticələrinə əsasən, DST yenilənmiş tövsiyələrini təqdim etməlidir.

# Yaşlı əhalinin yarıdan çoxu

Avropa İttifaqı ölkələrində yetkinlik yaşına çatan əhalinin yarıdan çoxu tam vaksinasiya olunub. Bu barədə Avropa Komissiyasının rəhbəri Ursula fon der Lyayen özünün tviter səhifəsində yazıb.

"Avropa İttifaqının yetkinlik yaşına çatan əhalisinin yarıdan çoxu artıq tam vaksinasiyadan keçib. Koronavirus variantlarından yayınmaq və yeni infeksiya dalğasının qarşısını almaq üçün peyvənd olunmaq vacibdir. Avropa İttifaqında yaşlı insanların 70 faizinin vaksinasiyası üçün yetərincə doza var. Gəlin bunu edək", – deyə Ursula fon der Lyayen bildirib.

Onun sözlərinə görə, ilin əvvəlindən etibarən Avropa İttifaqı ölkələrində vaksinasiya kampaniyası xeyli sürətlənib.

Qeyd edək ki, Avropa Komissiyası iyul ayında yetkinlik yaşına çatan insanların 70 faizinin vaksinasiyadan keçməsi üçün kifayət qədər peyvənd istehsalına nail olmaq hədəfini qarşıya məqsəd qoyduğunu elan etmişdi.



Artıq Avropa ölkələrinin əksəriyyəti COVİD-19 əleyhinə peyvəndin məcburi olması barədə qərar qəbul ediblər.

Fransada isə iyulun 21-dən sanitar sənədlərin ciddi yoxlanılması qaydası da qüvvəyə minəcək. Müəssisələr – kafe, restoran, kinoteatr kimi məkanların rəhbərliyinin sanitar sənədlərin (PCR testi və ya peyvənd sertifikatı) yoxlanılmasına biganəliyi onlara baha başa gələcək. Belə müəssisələrin rəhbərlərini 45 min avro cərimə və bir il həbs cəzası gözləyir.

# Kinoteatrlar pandemiyadan əvvəlki gəlir səviyyəsinə 2024-cü ildə çata bilər

COVID-19 pandemiyasına görə tətbiq edilən məhdudiyyətlər azaldıqca kinoteatrların mənfəətinin 2021-ci ildə bərpa ediləcəyi gözlənilir. Bu barədə "PricewaterhouseCoopers" (PwC) şirkətinin illik icmalında deyilir.

Qeyd olunur ki, bərpa prosesinə baxmayaraq, kinoteatrların mənfəətinin 2024-cü ilədək pandemiyadan əvvəlki səviyyəyə çatmayacağı proqnozlaşdırılır. Ötən il kinoteatrların kassa daxilolmaları 71% azalıb.

İcmalda həmçinin qeyd olunub ki, evdə izləmək üçün mövcud olan ənənəvi televiziya və video məzmunu hələ də əyləncə və media sənayesinin ən böyük istehlakçı seqmentidir (219 milyard dollar), lakin qarşıdakı 5 il ərzində bu seqmentin azalması (orta hesabla 1,2%) davam edəcək.



PwC-yə görə, qlobal əyləncə və media sənayesinin gəlirləri keçən il 3,8% azalaraq 2019-cu ildəki 2,1 trilyon dollardan 2 trilyona dollara düşüb. Bu, PwC-nin 22 illik araşdırmalarında ən böyük azalmadır. Şirkət qlobal əyləncə və media bazarının rəqəmsal məzmuna və reklama olan tələbat sayəsində 2021-ci ildə 6,5%, gələn il isə 6,7% böyüyəcəyini gözləyir.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187
**Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5146
**Sifariş:** 1316
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.